Günəş Şərqdən doğur!
№ 38 (5319), 2021-ci il
Qiymıəti 40 qəpik
# ŞƏRQ
Müstəqil İctimai-siyasi qəzet
www.sherg.az
27 fevral 2021-ci il (şənbə)




## Son sutkada 219 nəfərdə koronavirus aşkarlanıb

180 nəfər sağalıb, 4 nəfər vəfat edib

Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 219 yeni yoluxma faktı qeydə alınıb, 180 nəfər müalicə olunaraq sağalıb.

(Səh.9)

## Yaddaşımızdan heç vaxt silinməyəcək



Minlərlə azərbaycanlı "Ana harayı" abidəsi önünə gedərək öz ehtiramlarını ifadə ediblər

(Səh.5)

### Günün içindən...



## Prezidentin Qarabağla bağlı konkret strategiyası var

"Biz səbr və təmkinlə sonda öz məqsədimizə nail olacağıq"

Prezident İlham Əliyev yerli və xarici jurnalistlər üçün keçirdiyi mətbuat konfransında diqqət çəkdiyi önəmli xüsuslardan biri də Qarabağın dağlıq hissəsində fəaliyyət göstərən Rusiya sülhməramlıları ilə bağlı olub.

(səh.3)

## İkinci Qarabağ savaşı yolumuzu göstərdi



Azərbaycan Ordusu bundan sonra üstünlüyü Türkiyə və NATO modelinə verəcək

(səh.8)

# "Qarabağda sülhməramlıların fəaliyyəti müvəqqətidir"



## Prezident İlham Əliyev: "Noyabrın 10-da imzalanan bəyanat tam icra edilməlidir"

**Prezident İlham Əliyev fevralın 26-da yerli və xarici jurnalistlər üçün videoformatda mətbuat konfransı keçirib.**

Dövlət başçısı 4 saat ərzində 35 media qurumunun 50-dək sualını cavablandırıb. Ölkə rəhbəri jurnalistlərin suallarına dörd dildə - Azərbaycan, türk, ingilis və rus dillərində cavab verib.

(səh.2)

# Çevriliş gözlənilmir

Paşinyan hələ də arxasındakı 100 minlik böyük kütləyə güvənir

(səh.5)



## Zəngəzur dəhlizinin açılması ləngiyəcək

Ermənistan hakimiyyəti daxili böhranı əsas gətirərək prosesi uzada bilər

(səh.3)

## Polkovnik Elxan İbrahimov öz vəzifəsindədir

Müdafiə Nazirliyi məlumat yayılıb

(səh.4)

## Toy və yas mərasimlərinə icazə verilməlidir

Fazil Mustafa: "İcazə verin 20-30 nəfərlə də olsa camaat məclisini keçirsin"

(səh.9)

## Azərbaycan iqlim dəyişmələri ilə mübarizə üçün plan hazırlayır

(səh.12)



## Müharibə zamanı ailəsi ilə danışmayıb

Sadiqlə birgə döyüşənlərin əksəriyyəti şəhid olub

(səh.8)



## İranlı jurnalistin təxribatçı sualına tutarlı cavab verildi

"İran Türkiyə kimi həqiqi, səmimi qardaş dövlət deyil ki..."

(səh.6)

“Ermənistanın qarşısında seçim o qədər də böyük deyil, yeni reallıqla barışmalı və hesablaşmalıdır”

Prezident İlham Əliyev fevralın 26-da yerli və xarici jurnalistlər üçün videoformatda mətbuat konfransı keçirib. Dövlət başçısı 4 saat ərzində 35 media qurumunun 50-dək sualını cavablandırıb. Ölkə rəhbəri jurnalistlərin suallarına dörd dildə - Azərbaycan, türk, ingilis və rus dillərində cavab verib. Böyük Britaniyadan olan jurnalist Aynur Tattersal mətbuat konfransında deyib ki, 25 ildir jurnalistika ilə məşğuldur, amma hər hansı prezidentin dörd dildə bu cür mətbuat konfransı keçirməsinin şahidi olmayıb.

**“Sülh sazişi imzalanmasını istisna etmirik”**

**Ölkə rəhbəri vurğulayıb ki, Azərbaycanın siyasəti birmənalıdır. Biz sülhə köklənmişik:** ”Bizə müharibə lazım deyildi, bu məcburi tədbir idi və 30 ildir sürən danışıqlardan daha effektiv oldu. Əgər Ermənistan tərəfinin yanaşması dəyişərsə, təmasların möhkəmlənməsi istiqamətində işlər görüləcək. Düşündüyümüz kimi hər şey davam etsə, hansısa mərhələdə sülh müqaviləsinin imzalanmasını istisna etmirik. Çünki de-fakto 10 noyabr bəyanatı mahiyyətcə sülh müqaviləsidir. Sülh müqaviləsində başqa nə olur ki? Bir tərəf digərini məğlub edir. Digər tərəf kapitulyasiya aktını imzalayır”. Dini abidələrə gəldikdə, biz Azərbaycan dövləti olaraq onların hamısını qoruyur və bərpa edirik. Bununla bağlı kiminsə şübhəsi olmasın: ”Kəlbəcər rayonunda olan şəxslər Xudavəng kilsəsinə gələ bilərlər. Gələcəkdə də bununla bağlı heç bir problem olmayacaq”.

**“İsgəndər” atılmasını görməmişik, boş sözdür”**

**Prezident Ermənistan baş naziri Nikol Paşinyanın ”İsgəndər” raketi ilə bağlı açıqlamasını da şərh edib:** ”O ki qaldı Ermənistan baş nazirinin ”İsgəndər” raket kompleksi ilə bağlı bəyanatlarına, o, bizdə də suallar doğurub. Mən bunu ironiyalaşdırmaq istəməzdim. Bu məsələyə istər Rusiyanın rəsmi şəxsləri, istər parlament üzvləri, istərsə də ekspertlər tərəfindən kifayət qədər şərh verilib ki, raketin 10 faiz partlaması üçün gərək xeyli çalışasan. ”Biz ”İsgəndər” raketinin atılmasını görməmişik. Ona görə bu bəyanat səsləndiriləndə ötən gün biz yenə də maraqlandıq, ancaq yox, biz bunu görməmişik. Bu sadəcə publik şəkildə deyilmiş boş söz idi”.

**“Azərbaycanda hansısa xarici qüvvələrin yerləşməsi...”**

**Prezident İlham Əliyev deyib ki, bəzən dünyada, eyni zamanda Azərbaycanda Rusiya sülhməramlı missiyasının fəaliyyəti ilə bağlı o qədər də dəqiq olmayan fərziyyələr irəli sürülür:**





# “Qarabağda sülhməramlıların fəaliyyəti müvəqqətidir”

## Prezident İlham Əliyev: “Noyabrın 10-da imzalanan bəyanat tam icra edilməlidir”

”Onların bu gün Azərbaycan ərazisində olması, eyni zamanda azad edilmiş torpaqlara Azərbaycan əhalisinin qayıtması üçün də müsbət rol oynayacaq. Çünki Ermənistanın diversiya qrupunun azad edilmiş torpaqlara göndərilməsi bunu göstərir. Ona görə hesab edirəm ki, onların fəaliyyəti müsbətdir. Bu fəaliyyət əminəm ki, belə də davam edəcək. Amma yenə də Azərbaycan ərazisində hər hansı bir başqa xarici qüvvələrin yerləşməsi müzakirə mövzusu deyil”.

**“Düşməndən intiqamımızı döyüş meydanında aldıq”**

**Ölkə rəhbəri vurğulayıb ki, bizim hədəfimiz ərazi bütövlüyümüzün bərpa edilməsi idi və biz buna nail olduq:** ”Hərbi qələbə qazandıq. Bu torpaqları danışıqlar, müzakirə yolu ilə yox, hərbi yolla azad etdik. Döyüşərək, qan tökərək, şəhidlər verərək. Ədaləti bərpa etdik. Şəhidlərimizin qanını aldıq. Düşməndən intiqamımızı döyüş meydanında aldıq. Sülhməramlılara gəldikdə isə onların Azərbaycan ərazisində fəaliyyət göstərməsi müvəqqəti xarakter daşıyır, keçici xarakter daşıyır. Bu əsgərlər xüsusi missiya icra edirlər. Bu, hərbi baza anlamına gəlmir. Rusiyanın sülhməramlı qüvvələri burada sülhməramlı missiyasını icra edirlər. Hesab edirəm ki, müvəffəqiyyətlə icra edirlər. Hərdən bir ara-sıra müəyyən problemlər üzə çıxır. Amma ümumilikdə Rusiya sülhməramlı qüvvələrinin fəaliyyəti qənaətbəxş hesab oluna bilər”.

**“Ermənistanda baş verənlər onların daxili işidir”**

**Prezident Ermənistandakı proseslərlə bağlı sualı da cavablandırıb:** ”Ermənistanda indi tamamilə böhranlı vəziyyət hökm sürür. Mən onların daxili vəziyyəti ilə bağlı hər hansı bir şərh vermək istəməzdim. Prinsip etibarı ilə biz heç vaxt başqa ölkələrin daxili işlərinə qarışmırıq. Xüsusilə də belə həssas məqamda. Ancaq müharibənin nəticələri dəyişməz olaraq qalır və qalacaq. Noyabrın 10-da imzalanan bəyanat icra edilir və tam icra edilməlidir. Bəyanatın müddəalarının böyük hissəsi artıq icra edilib. Ancaq elə məsələlər var ki, onlar indi müzakirə mövzusudur. Ümid edirəm ki, Ermənistanda yaranan vəziyyətə baxmayaraq bəyanat icra ediləcək. Əks təqdirdə Ermənistan daha da ağır duruma düşəcək. Ermənistanın qarşısında seçim o qədər də böyük deyil və yeni reallıqla barışmalı və hesablaşmalıdır”.

**“Biz bütün hərbi əsirləri qaytarmışıq”**

**Ölkə başçısı qeyd edib ki, döyüş əməliyyatları dayandırıldıqdan sonra bizdə olan məlumata görə, noyabrın 20-si tarixləri ətrafında Ermənistanın Gümrü şəhəri ərazisindən 60 nəfərdən çox diversiya qrupu göndərilmişdi:** ”Hansı ki, biz hələ də başa düşə bilmirik ki, Laçın dəhlizi vasitəsilə Azərbaycan Ordusunun nəzarəti altında olan əraziyə necə keçiblər? Bildiyiniz kimi, 10 noyabrdan sonra Rusiya Federasiyasının sülhməramlı missiyası məsuliyyət zonası xəritəsini dərc etmişdi, bölüşmüşdü. O xəritə daim saytdadır, yenilənir. Döyüş əməliyyatları bitdikdən sonra biz aşkarladıq ki, erməni silahlı birləşmələri bəzi ərazilərdə qalmaqdadır. Bizə əvvəl elə məlumat verdilər ki, onlar sadəcə yollarını azıblar, mühasirədən çıxa bilməyiblər. Müəyyən müddət sülhməramlı missiya ilə birgə Azərbaycan hərbçiləri bunların azmış əsgərlər olduğunu düşünərək, onlara kömək etməyə cəhd göstərdilər, onların geri qaytarılması üzrə işlər apardılar. Amma sonra biz aşkarladıq ki, bunlar diversiya qrupudur və orada həm hərbçilərə, həm də dinc əhaliyə, vətəndaşlara hücumlar edirlər. Nəticədə 4 nəfər bizim hərbçilərimiz arasında şəhid oldu və dinc əhali arasında da 1 nəfər həlak oldu. Təbii ki, biz əks-terror əməliyyatı keçirdik və nəticədə bir neçə terrorçu məhv edildi, 60-dan çox terrorçu bizim tərəfimizdən tutuldu. Və onları indi hərbi əsir adlandırırlar, biz düşünürük ki, bu, məsələnin təhrifidir. Çünki müharibə bitəndən 20 gün sonra hərbi əsir yarana bilməz. Biz bütün hərbi əsirləri qaytarmışıq. Biz hətta onları bizə qaytarılan əsirlərdən əvvəl qaytarmışdıq. Bu insanlar isə hərbi əsir deyil, bunlar terrorçulardır, diversantlardır. Ermənistan və digər ölkələr tərəfindən istənilən spekulyasiyalar yersizdir”.

**“Laçın və Zəngilanda da aeroport tikəcəyik”**

**Dövlət başçısı bildirib ki, Laçın və Zəngilanda da aeroport tikiləcək:** ”Füzuli aeroportunun tikintisinə başlanıb. Ərazinin operativ şəkildə minadan təmizlənməsinə başlanılıb. Çünki ilk növbədə, ərazini minalardan təmizləmək lazım idi. Bu proses başa çatmaq üzrədir. Operativ qaydada aeroportun uçuş-eniş zolağı və naviqasiya sistemi istifadəyə veriləcək. Füzuli aeroportu beynəlxalq aeroport olacaq. Uçuş zolağı ən ağır yük təyyarələri daxil olmaqla, bütün tip təyyarələri qəbul edə biləcək. Aeroportun tikintisinin nə zaman başa çatacağını söyləmək çətindir, çünki ərazinin minalardan təmizlənməsi məsələsi var. Biz aeroportun bu il istifadəyə verilməsini nəzərdə tutmuşuq. Əgər bütün işlər plan üzrə gedərsə, Füzuli aeroportu bu il payızın əvvəlində istifadəyə veriləcək. Aeroportların tikintisi üzrə planlarımız Füzuli ilə məhdudlaşmır. Biz, həmçinin, Laçın və Zəngilanda da aeroport tikəcəyik. Təbii bunlar həmin ərazilərin abadlaşdırılması və bərpası planları çərçivəsində həyata keçiriləcək. Biz gözləyirik ki, Zəngilan çox vacib logistika mərkəzə çevriləcək. Bildiyiniz kimi, 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatın bəndlərindən biri Ermənistan ərazisi vasitəsilə Azərbaycan və Naxçıvan arasında nəqliyyat dəhlizinin yaradılmasını nəzərdə tutur. Bu dəhliz təbii ki, Türkiyənin Rusiya ilə əlaqəsini də yaradacaq. Buna görə bizim planlarımız böyükdür. Bu il ərzində biz onları həyata keçirəcəyik”.

**“Türkiyə bölgəmizdə çox müsbət rol oynayır və bu, çox önəmlidir”**

**Prezident bəyan edib ki, Türkiyə müharibənin ilk günlərindən çox müsbət mövqe göstərib.** Sülhə, sabitliyə hesablanmış mövqe, eyni zamanda ilk günlərdə Azərbaycanın haqq işinə Türkiyə öz dəstəyini verib: ”Əziz qardaşım, hörmətli Prezident Ərdoğan ilk günlərdən çox qəti açıqlamalar verib. Digər vəzifəli şəxslər - Milli müdafiə naziri, xarici işlər naziri, TBMM sədri və digər nazirlərin açıqlamaları ilə bizə verilən siyasi və mənəvi dəstək, həm də bizi çox gücləndirdi. Eyni zamanda bir çoxları üçün çox ciddi mesaj oldu. Müharibədən sonra da Türkiyə çox olumlu mövqe göstərir. Dünən Türkiyənin çox rəsmi şəxsləri Ermənistanda olan vəziyyətlə bağlı açıqlamalar verdilər. Bu gün Azərbaycan, Ermənistan və Rusiya arasında Baş nazir müavinləri səviyyəsində aparılan görüşlər də Türkiyə tərəfinə məlumdur. Çünki bu görüşlər bütün bölgə üçün əhəmiyyət daşıyır. Həm Türkiyə, həm İran, həm gələcəkdə belə bir istək olarsa, Gürcüstan ümumi platformaya qoşula bilər. Türkiyə bu gün bütün dünyada güc mərkəzi kimi bütün bölgələrdə, o cümlədən bizim bölgəmizdə çox müsbət rol oynayır və bu, bölgənin sabitliyi üçün çox önəmlidir”.

**“Postmüharibə dövrü doğrudan da yeni imkanlar açır”**

**Ölkə rəhbəri müharibədən sonra regiondakı vəziyyəti çox yüksək qiymətləndirdiyini deyib:** ”Regionun gələcək inkişafı üçün bu gün unikal imkanlar yaranıb. Çünki bir daha qeyd etmək istəyirəm ki, biz və bizim bir çox tərəfdaşlarımız hesab edir ki, müharibə başa çatıb. Biz artıq kitabın o səhifəsini bağlamalıyıq və gələcəyə baxmalıyıq. Nikbinliyə digər səbəb olan amil odur ki, bizim qonşularımız da bizim fikirlərimizi bölüşür və regionun gələcək inkişafı, inteqrasiya layihələrinin icrası ilə bağlı bizim aramızda fikir ayrılığı yoxdur. Mən deyə bilərəm ki, Türkiyə, Rusiya, İran rəhbərləri ilə bu məsələ barədə mənim bir çox söhbətlərim olub. Xarici işlər nazirləri, Baş nazirlər və Baş nazirlərin müavinləri səviyyəsində məsləhətləşmələr, təmaslar olub və biz faktiki olaraq tam yekdil fikir sərgiləyirik ki, bu imkanlardan maksimim səmərə ilə istifadə etməliyik. Çünki postmüharibə dövrü doğrudan da yeni imkanlar açır. Əməkdaşlıq üçün, qarşılıqlı ticarət üçün, kommunikasiyaların açılması üçün, yeni nəqliyyat dəhlizlərinin yaradılması üçün çox unikal imkanlar yaradır. Təkcə Zəngəzur dəhlizinə əgər biz fikir versək, görərik ki, bu təkcə Rusiya, Azərbaycan, Türkiyə, İran, Ermənistan maraqlarına cavab vermir, bu, qonşu ölkələrin də maraqlarına cavab verir. Yəni Avrasiyanın yeni bir nəqliyyat damarı açıla bilər. Əgər bu müsbət meyillər üstünlük təşkil edərsə, əlbəttə ki, hər bir icra edilən layihə özündən sonra digər layihəni də gətirib çıxaracaq.

**İsmayıl**

# Prezidentin Qarabağla bağlı konkret strategiyası var



## "Biz səbr və təmkinlə sonda öz məqsədimizə nail olacağıq"

**Prezident İlham Əliyev yerli və xarici jurnalistlər üçün keçirdiyi mətbuat konfransında diqqət çəkdiyi önəmli xüsuslardan biri də Qarabağın dağlıq hissəsində fəaliyyət göstərən Rusiya sülhməramlıları ilə bağlı olub.**

Ölkə rəhbəri açıq şəkildə bəyan edib ki, rus sülhməramlılarının Azərbaycan ərazisində fəaliyyəti müvəqqəti, keçici xarakter daşıyır: "Bu əsgərlər xüsusi missiya icra edirlər. Bu, hərbi baza anlamına gəlmir. Rusiyanın sülhməramlı qüvvələri burada sülhməramlı missiyasını icra edirlər. Hesab edirəm ki, müvəffəqiyyətlə icra edirlər. Hərdən bir ara-sıra müəyyən problemlər üzə çıxır. Amma ümumilikdə Rusiya sülhməramlı qüvvələrinin fəaliyyəti qənaətbəxş hesab oluna bilər".

**Ölkə başçısının vurğuladığı məqamla bağlı "Şərq"ə danışan millət vəkili Ceyhun Məmmədov deyib ki, suallara verilən cavablar bir daha göstərdi ki, cənab Prezidentin Qarabağla bağlı konkret strategiya və yanaşması var. Deputatın sözlərinə görə, bu hədəfə nail olmaq üçün Azərbaycan rəhbəri ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirir:** "Bildiyiniz kimi, zaman-zaman Azərbaycan cəmiyyətində sülhməramlıların fəaliyyəti geniş müzakirə olunur. Cəmiyyətdə bu məsələ ilə bağlı müəyyən narahatlıq var. Prezident İlham Əliyev məsələyə tam aydınlıq gətirdi. Dövlət başçısı qeyd etdi ki, rus sülhməramlılarının Azərbaycan ərazisində fəaliyyət göstərməsi müvəqqətidir. Yəni ara-sıra bəzi problemlər ortaya çıxsa da, ümumilikdə sülhməramlıların fəaliyyətini qənaətbəxş hesab etmək olar. 44 günlük müharibədə əsas qayəmiz ərazi bütövlüyünü təmin etmək idi və Azərbaycan buna nail oldu. Bütün Qarabağ bölgəsi Azərbaycan əraziləridir. Düzdür, zaman-zaman ermənilər müəyyən təxribatlar törətməyə çalışacaqlar. Ancaq biz səbr və təmkinlə sonda öz məqsədimizə nail olacağıq. Sadəcə nəzərə alaq ki, bu, uzunmüddətli prosesdir".

**İsmayıl Qocayev**






# Prezident İlham Əliyev "Ana harayı" abidəsini ziyarət edib

**XX əsrdə bəşər tarixinə Xocalı soyqırımı kimi daxil olan qanlı faciənin 29-cu ildönümü ilə əlaqədar fevralın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva faciə qurbanlarının xatirəsinə Bakının Xətai rayonunda ucaldılmış abidəni ziyarət ediblər.**

Prezident İlham Əliyev Xocalı soyqırımı abidəsinin önünə əklil qoyub, faciə qurbanlarının xatirəsini ehtiramla yad edib.

Birinci xanım Mehriban Əliyeva abidənin önünə gül dəstəsi qoyub.

# Zəngəzur dəhlizinin açılması ləngiyəcək

## Ermənistan hakimiyyəti daxili böhranı əsas gətirərək prosesi uzada bilər



**Ermənistanda daxili vəziyyət getdikcə gərginləşir. Mitinqlər artıq ən pik həddə çatıb. Buna baxmayaraq, ABŞ-da Baydenin hakimiyyətə gəlişindən etibarən devrilməsi gözlənilən Baş nazir Nikol Paşinyan hələ də "post"undadır.**

O, yenə səsucaldıcı ilə xalqın içinə çıxdı, pafoslu cümlələr işlətdi, "Məni güllələyin"dedi. Görünür, ölməyincə hakimiyyətdən getmək fikri yoxdur. Hər halda öz işidir. Lakin siyasət heç də ancaq şəxsi arzulardan, istəklərdən ibarət deyil. Necə deyərlər, sən saydığını say, gör, fələk nə sayır. Fələyin Paşinyan üçün nə saydığı isə hələlik sual altındadır.

**Millət vəkili, Azərbaycan Demokratik İslahatlar Partiyasının sədri Asim Mollazadə Ermənistandakı daxili vəziyyəti "Şərq"ə şərh etdi:** "Hakimiyyət çevrilişi üçün hüquqi-konstitusion yol yoxdur. Parlamentdə çoxluq Paşinyanın tərəfindədir. Xalq isə mübarizələrdən yorulub. İnsanlar hərbi cinayətkarların geri qayıtmasını istəmirlər. Odur ki, məncə, proseslər hələ bir müddət belə davam edəcək. Üstəgəl, təhlükəsizlik xidmətinin və polisin baş nazirin arxasında olduğunu da nəzərə almalıyıq".

**A. Mollazadənin fikrincə, rəsmi İrəvan mövcud vəziyyətdən sui-istifadə edə bilər:** "Bu proseslər Ermənistanın öz öhdəliklərini yerinə yetirməsinə mane olmasını istisna etmirəm. Əsas öhdəlik Zəngəzur dəhlizinin açılmasıdır. Bütün region ölkələri bunu istəyirlər. Lakin Ermənistan hərbi-siyasi hakimiyyəti daxili böhranı bəhanə gətirərək prosesin icrasını ləngidə bilər. Onu da deyim ki, revanşist qüvvələrin fəallaşması onlar üçün ağır nəticələrə səbəb olacaq. Düşmənlər "Dəmir yumruğ"u unutmamalıdırlar".

**Kənan**

# Polad Bülbüloğlu "Gəl, ey səhər"in tarixçəsini niyə gizlədir?

## Fikrət Qoca: "Ailəmdə qarışıqlıqlar var idi, qohumlarımdan rəhmətə gedənlər olmuşdu, nəşr etdiyim kitaba isə qadağa qoyulmuşdu"

Söhbət 90-cı illərdə uşaqlı-böyüklü hər kəsin sevimlisinə çevrilən "Gəl, ey səhər" mahnısından gedir.

Sözügedən mahnı ilk dəfə 1968-ci ildə kinorejissor Arif Babayevin "Uşaqlığın son gecəsi" filmi üçün bəstələnir və filmin son kadrlarında ifa olunur.



Mahnının bəstəkarı, eyni zamanda onun ən məşhur ifaçısı olan Polad Bülbüloğluna belə bir sual verilir: "Gəl, ey səhər" mahnısının tarixçəsi haqqında nə deyərdiniz?

O isə nədənsə gerçəkləri gizlədir.

Bəlkə də mahnı artıq bu anlamda sevildiyi üçün o, belə cavab verir: "1968-ci ildə Arif Babayev "Uşaqlığın son gecəsi" filmini çəkirdi, o filmə musiqi yazdım. Həmin mahnı da o filmin son kadrlarında ifa olunur. Bilmirəm, nəğmələrimin yaranması təkcə tamaşaçı, dinləyici üçün yox, mənim özüm üçün də hadisədir".

*Bəstəkarın son cümləsi diqqətimizi çəkməyə bilməzdi:* "Nəğmələrimin yaranması mənim özüm üçün də hadisədir"...

Xatırlayırsınızsa, mahnının klipi də dəniz kənarında çəkilib. Polad bəy sanki bir insanı səsləyir orada. Mahnısı ilə fəryad edir.

*Mahnının sözlərini yazan Fikrət Qoca isə müsahibələrinin birində mahnı haqqında bu sözləri deyib:* "Gəncliyimdə, Moskvada Maksim Qorki adına universitetdə oxuyanda işlərim o qədər də qaydasında deyildi. Ailəmdə qarışıqlıqlar var idi, qohumlarımdan rəhmətə gedənlər olmuşdu, nəşr etdiyim kitaba isə qadağa qoyulmuşdu. Gərgin bir halda, unudulmuş, atılmış bir insan kimi qatarla Moskvaya gedirdim. Həmişəki qayda ilə nələrsə cızma-qara edirdim. Qəfildən şeir yazmaq üçün əlimdə tutduğum kağızı buruşdurub, qatarın pəncərəsindən çölə tulladım və arxasınca baxdım. Mənə elə gəldi ki, "mən" və "özüm" arasında da, o kağızla dayandığım yer arasındakı məsafə qədər çox az bir məsafə qalıb.

Birdən qatarda radio oxumağa başladı. Mənim "Ay Şəlalə" adlı bir şeirim var idi, ona mahnı bəstələnmişdi. Radiodakı həmin mahnı idi. Musiqinin ortasında, "Mahnının sözləri Fikrət Qocaya aiddir" - deyə bildirdilər. Mahnım oxundu, qatar işıqlandı, dünya aydınlandı, bir anda belim dikləşdi. Öz-özümə "mən varam və həyat da gözəldir" - dedim. Mahnılarımı eşidəndə hələ də bunları hiss edirəm. "Gəl, ey səhər" də belədir.

"Polad Bülbüloğlu bu mahnını 1968-ci ildə "Uşaqlığın son gecəsi" filmi üçün bəstələyib və deyilənə görə, bu mahnı onun Xəzər dənizində boğulan qızı Səhər üçün olan rekviyemdir. Bəlkə də dinləyən hər kəsə bu qədər təsir edə bilməyinin səbəbi budur, kim bilə bilər"...

*Mövzunu dərindən və daha dəqiq öyrənmək üçün xalq şairi ilə bir daha əlaqə saxladıq.*

*Şair illər öncə verdiyi müsahibəni təkzib etməsə də, bu barədə bir şey xatırlamadığını qeyd etdi. Çünki hadisənin üstündən 53 il keçib.*

**Ağarza Elçinoğlu**

# Sabir Rüstəmxanlı seçicilərlə canlı bağlantı qurdu



Fevralın 26-da Neftçaladan seçilən millət vəkili, xalq şairi Sabir Rüstəmxanlı feysbuk üzərindən canlı bağlantı vasitəsi ilə seçicilərlə görüşüb.

Ötən seçkilərdən bir il keçdiyini, bunun üçün də hesabat və görüşün vacib olduğunu vurğulayan S.Rüstəmxanlı vətəndaşlarla indiyə qədər 8 dəfə görüşdüyünü qeyd edib.

Canlı bağlantı zamanı seçicilər problemlərini yazıb, Sabir Rüstəmxanlı həmin məsələlərə bir-bir aydınlıq gətirib, həll yolunda köməklik edib.

## Çingiz Qənizadə: "Bəzən seçicilər elə şey tələb edir ki, bu, deputatın həll edə biləcəyi məsələ deyil"

Problemlər, əsasən, işsizlik, su və yol ilə bağlı olub.

Millət vəkili, həmçinin, qazi və şəhid ailələrinin problemlərinə də diqqət yetirib.

Qeyd edək ki, millət vəkilinin bu addımı insanlar tərəfindən rəğbətlə qarşılanıb.

**Mövzu haqqında "Şərq"ə fikir bildirən eks-deputat Çingiz Qənizadə millət vəkilinin bu addımını çox müsbət qarşıladığını bildirdi:** "Bu gün dünyada hər şey inkişaf edir. Elm, texnika və s. Əgər insanlarla virtual əlaqə saxlamaq mümkündürsə, bu da təqdirəlayiq haldır. Yəqin ki, Sabir müəllim indiki durumda, insanların çox toplaşmasının uyğun olmadığı bir dövrdə feysbuk üzərindən görüşə üstünlük verib. Bunu alqışlayıram. Eyni zamanda videogörüntü vasitəsilə seçicilərlə görüşən digər millət vəkilləri də var. Mən onların da addımlarını qiymətləndirirəm.

Hesab edirəm ki, deputatlar müxtəlif vasitələrdən istifadə etməklə seçicilərlə görüşməlidirlər. Onlarla daima təmasda olmalıdırlar.

Amma bəzən seçicilər elə şey tələb edir ki, bu, deputatın həll edə biləcəyi məsələ deyil. Millət vəkillərinin imkanı xaricindədir. Vətəndaşlar icra strukturları və digər qurumların üzərinə düşən məsələlərin həllini deputatlardan istəyirlər. Bu da başadüşüləndir. Düşünürəm ki, hər qurum öz üzərinə düşən vəzifəni normal icra etsə deputatlara olan belə tələblər də azalar.

Bugünkü reallıq bundan ibarətdir. İstər Sabir Rüstəmxanlı, istərsə də digərlərinin bu formatda seçicilərlə əlaqə saxlaması müsbət haldır və buna davam etmək lazımdır".

**Ağarza Elçinoğlu**

## "Çətinliklər varsa, onlar tez bir zamanda aradan götürüləcək"

### Elçin Əmirbəyov: "Hərbçilərin maaşları ilə bağlı məsələ dövlət rəhbərliyinin nəzarəti altındadır"



**"Hərbçilərin maaşları ilə bağlı məsələ birbaşa dövlət rəhbərliyinin nəzarəti altındadır".**

Bunu APA-ya açıqlamasında Azərbaycan Respublikasının Birinci-vitse prezidentinin köməkçisi Elçin Əmirbəyov deyib. O bildirib ki, Azərbaycan dövləti öz əsgərinin qayğısına qala biləcək bir dövlətdir: "Ümid edirəm ki, bu məsələdə hər hansı çətinliklər varsa, onlar da tez bir zamanda aradan götürüləcək".

## Polkovnik Elxan İbrahimov öz vəzifəsindədir

### Müdafiə Nazirliyi məlumat yayılıb

**Bəzi elektron media resurslarında polkovnik Elxan İbrahimovun Tibb Baş İdarəsinin rəisi vəzifəsindən azad edilməsi ilə bağlı məlumat yayılıb.**

Müdafiə Nazirliyindən bildirilib ki, polkovnik Elxan İbrahimov əvvəl olduğu kimi hazırda da Tibb Baş İdarəsi rəisinin müavini vəzifəsindədir.

*Qeyd edilib ki, Tibb Baş İdarəsinin rəisi vəzifələrinin icrası müvəqqəti olaraq polkovnik Firuddin Nəbiyevə həvalə edilib.*



## Rusiya həmişə müttəfiqinə silah yardımı göstərib

### Ancaq indi Ermənistan ordusu elə vəziyyətdədir ki, uzun müddət özünə gələ bilməyəcək

**Prezident İlham Əliyev yerli və xarici jurnalistlər üçün mətbuat konfransı keçirib. Jurnalistlərin suallarını cavablandıran dövlət başçısı mühüm məqamları diqqətə çatdırıb:**



"Bu yaxınlarda səhv etmirəmsə, Ermənistan prezidenti və Rusiyadakı Ermənistan səfiri demişdi ki, Rusiya Ermənistan ordusunun müasirləşməsində iştirak edəcək. Nəyə görə?! Hansı məqsədlə? Buna elə bir ehtiyac yoxdur... Belə bir hakimiyyətə dağıdıcı silah vermək olarmı? Bizim əsas hərbi texnikamız Rusiya istehsalı olan texnikalardır. Ermənistandan fərqli olaraq, biz heç vaxt Rusiya istehsalı olan texnikadan şikayətlənməmişik. Bu, dünyada ən yaxşı texnikalardan biridir. Sadəcə, düzgün əllərdə olmalıdır ki, sonra kimisə ittiham etməyəsən".

**Prezidentin çıxışını "Şərq"ə şərh edən Qarabağ Azadlıq Təşkilatının (QAT) sədri Akif Nağının sözlərinə görə, cənab Prezident dünən Ramana qəsəbəsindəki yaşayış kompleksindəki çıxışında söylədi ki, bəzi qüvvələr Ermənistan ordusunu yenidən qurmaq istəyirlər**: "Necə ki, İkinci Qarabağ müharibəsində Ermənistanda təmənnasız silah yardımı edilirdi. Rusiya yenə də bu mövqeyini davam etdirir. Amma nə qədər çalışsalar da, Ermənistan çox ağır durumdadır".

*A.Nağı vurğulayıb ki, İrəvana çoxlu sayda silah yardımı etsələr də, Ermənistan ordusunun yenidən qurulması və özünə gəlməsi mümkün olmayacaq:* "Olmayan ruhun geri qaytarılması çətin məsələdir. Təbii ki, dövlətlər arasında müəyyən münasibətlər var. Hər kəs çalışır ki, öz ordusunu gücləndirsin. Cənab Prezident Azərbaycan Ordusunun təkmilləşdirilməsi, dünyada olan ən yeni silahların alınması ilə bağlı açıqlamalar verir.

Ölkə başçısı bu istiqamətdə hərtərəfli işlərin görüldüyünü bildirir. Qarşı tərəf məğlubiyyətini qəbul etməsə, başqa yollara əl atsa, Azərbaycan hər zaman hazırlıqlıdır. Bu mənada Ali Baş Komandan tamamilə düzgün mövqedədir.

Ona görə də hərbi baxımdan müvafiq tədbirlər davam etdirilir".

**Yeganə Bayramova**

## Heç bir şübhə ola bilməz

### Ermənilər minaları xəritə əsasında basdırıblar

"Əsas çətinlik minalardır. Çünki erməni tərəfi mina sahələrinin xəritəsini bizə təqdim etmədi və bu, yeri gəlmişkən, cinayət olaraq qiymətləndirilə bilər. Çünki hərbi əməliyyatlar sona çatandan sonra hərbçi və mülki şəxslər arasında mina partlayışlarından həlak olanlar olub. Buna səbəb minalı sahələrin xəritəsinin təqdim olunmaması olub".



Bunu Azərbaycan Prezidenti İlham Əliyev yerli və xarici jurnalistlər üçün videoformatda keçirdiyi mətbuat konfransında deyib. Dövlət başçısı bildirib ki, növbəti dəfə erməni tərəfinin davranışlarının qeyri-səmimiliyindən əmin oluruq: "Sözləri ilə əməlləri düz gəlmir. Biz onlara hərbi əsirləri, ölənlərin meyitlərini təhvil verdik. Biz özümüzü əxlaq normaları, insanlıq davranışları çərçivəsində aparırıq. Mina xəritələrinin bizə verilməməsi hərbi qulluqçu və dinc sakinləri şüurlu şəkildə ölümə düçar etməkdir. Hansı əməkdaşlıqdan söhbət gedə bilər ki?".

**Prezidentin diqqət çəkdiyi məsələyə münasibət bildirən politoloq Nurlan Qələndərli "Şərq"ə açıqlamasında bildirib ki, Azərbaycan işğaldan azad etdiyi ərazilərdə bütün imkanlardan maksimum yararlanmaqla minatəmizləmə prosesini davam etdirir.** Amma ərazinin geniş olması, minalanmış sahələrin miqyasının kiçik olmaması, yəni yüzlərlə kvadrat kilometr ərazini əhatə etməsi, üstəlik də Ermənistanın "xəritə təxribatı" işləri xeyli çətinləşdirir: "Təbii ki, cinayətkar dövlətin "xəritə oyunu" vasitəsilə həyata keçirmək istədiyi plan aydındır. İlk olaraq onlar maksimum surətdə çoxlu insanın həlak olmasına müvəffəq olmağa səy göstərirlər. İkincisi isə, azərbaycanlıların bu ərazilərə qayıdışına müvəqqəti də olsa mane olmağa çalışırlar və müddəti mümkün qədər uzatmağa cəhd edirlər".

## "Mütləq bu sənəd Azərbaycana təqdim olunmalıdır"

*Politoloq əlavə edib ki, Ermənistan mütləq şəkildə minalanmış ərazilərin xəritəsini Azərbaycana verməlidir:* "Çünki bu, beynəlxalq hüquq normaları əsasında qəbul edilmiş müvafiq konvensiyaların tələbidir. İşğaldan azad olunmuş ərazilərimizdə mülki və hərbi şəxslərin minaya düşməsi məhz bu təxribatın nəticəsidir və hərbi cinayət hesab olunur. Eyni zamanda, bu cür qeyri-konstruktiv mövqe regional təhlükəsizliyə ciddi təhdid yaratmaqdır. Bunun qarşısını almaq üçün beynəlxalq təşkilatlar adekvat addımlar atmalı - məcburedici tədbirlər görməlidirlər. Çünki ermənilər üçtərəfli bəyanatın müddəalarını icra etmək əvəzinə, hələ də sənədin şərhi ilə məşğul olurlar. Eyni zamanda, siyasi təxribatlarını və hərbi cinayətlərini davam etdirməkdədirlər. Hazırkı mərhələdə isə bunu "xəritə oyunu" üzərindən aparırlar. Ermənilərin səbəb kimi göstərdiyi bəhanə isə çox bəsitdir və qətiyyən inandırıcı deyil: "bu xəritələr yoxdur". Təbii ki, bu, ermənilərin yüzlərlə yalanından sadəcə biridir. Reallıq budur ki, işğaldan azad edilmiş ərazilər minalarla, partlamamış hərbi sursatlarla, tərkibində partlayıcı olan qurğularla və müharibənin partlayıcı qalıqları ilə çirklənmiş sahələrdir. Və şübhə yoxdur ki, minalar xəritə əsasında basdırılıb. Buna görə də Ermənistan mütləq bu sənədi Azərbaycana təqdim etməlidir".

**Aynurə Pənahqızı**

# Ermənilərin minalanmış “xəritə”si

## Ramil Həsən: “Basdırılmış minaların yerini göstərməməkdə israr edən Ermənistana beynəlxalq müstəvidə iddia qaldıra bilərik”



**Müharibələr tarixinin ən acınacaqlı statistikalarından biri mülki şəxslərin minalardan əziyyət çəkməsidir. Beynəlxalq təcrübəyə əsasən, münaqişələr bitdikdən sonra əksər hallarda minalı sahələrin xəritələri qarşı tərəfə təqdim edilir ki, gələcəkdə mülki əhali bundan zərər görməsin.**

Ermənistan isə 30 ilə yaxın müddətdə işğalda saxladığı Azərbaycan torpaqlarının minalanmış xəritələrini nəinki təhvil vermir, hətta bu ərazilərdə hər yeri, hərbi təyinatı olmayan torpaqları belə minalayıb. Təbii ki, burada məqsəd mümkün qədər çoxlu sayda mülki şəxslərin həlak olmasıdır.

Yaxın keçmişə nəzər salsaq, Birinci Qarabağ müharibəsində minlərlə dinc sakinin hərbi məqsədlər üçün basdırılmış minaların qurbanı olduğunu görə bilərik. İkinci Qarabağ savaşı sona çatıb. Lakin Azərbaycan tərəfi nə qədər çalışsa da, minalı sahələrin xəritəsini əldə edə bilmir. Ermənistan xəritəni verməkdən boyun qaçırır. Müəyyən iddialara görə, Rusiya dövləti minalı sahələrin harada yerləşdiyini bilir. Belə olan halda dövlətimiz alternativ olaraq hansı tədbirlər görə bilər?



**Sualımızı cavablandıran millət vəkili Ramil Həsən ”Şərq”ə vurğulayıb ki, Qarabağda inkişaf strategiyası və əhalinin ora qayıtması üçün əsas manеə həmin ərazilərin minalardan təmizlənməməsidir.**

*Deputatın sözlərinə görə, şübhəsiz ki, vətəndaşlarımızın azad edilmiş ərazilərə gec qayıtması müəyyən güc və qüvvələrə sərf edir*: ”Bu, beynəlxalq hüquq nöqteyi-nəzərdən çox kobud qanun pozuntusudur. Müharibə bitdikdən sonra qarşılıqlı şəkildə addım atılır və minalardan təmizlənmə prosesi üçün sənədlər qalib ölkəyə təqdim edilir. Təəssüf ki, Ermənistan bunu etmir və böyük bir cinayətə yol verir”.

**Parlament üzvünün fikrincə, Azərbaycan tərəfi belə olan halda ilk olaraq İsrail və Türkiyə ilə, həmçinin beynəlxalq təşkilatlarla əməkdaşlığını gücləndirməlidir:** ”Dövlətimiz həmin ölkələrin minalı ərazilərin təmizlənməsi təcrübəsindən istifadə edə bilər. Vaxt itirməmək üçün hazırda türkiyəli mütəxəssislər ölkəmizə gəliblər. Onsuz da bu proses davam edir. Azad olunan kəndlərdə müxtəlif layihələrin həyata keçirilməsi minalar təmizlənməmiş necə mümkün ola bilər? Ona görə də dövlətimiz üzərinə düşən imkanlardan maksimum istifadə edərək minalardan təmizləmə işini görməlidir. Lakin real bir həqiqət var: Xəritə Azərbaycana təqdim olunsaydı, bu iş qısa müddətdə bitərdi. Beləliklə, kommunikativ nəqliyyat yollarının açılması, mülki əhalinin sağ-salamat qayıtması baş tutardı. Azərbaycan yanvarın 15-də Avropa Məhkəməsinə müraciət edərək Ermənistanın vandalizm siyasəti ilə bağlı maddi və mənəvi təzminat tələb edib. Eyni zamanda basdırılmış minaların yerini göstərməməkdə israr edən Ermənistana beynəlxalq müstəvidə iddia qaldıra bilərik.

Azərbaycan, Türkiyə və Rusiya arasında münasibətləri hər gün yeni iqtisadi və siyasi platforma çərçivəsində davam edir. Bunu nəzərə alsaq, minalı ərazilərin xəritəsinin Ermənistandan alınması üçün Rusiyanın mövqeyindən istifadə edə bilərik. Bu məqamlar bir-birini tamamlamalıdır ki, bölgədə sülhə və təhlükəsizliyə xidmət edən işlər həyata keçirilsin”.

**Yeganə Bayramova**




## Yaddaşımızdan heç vaxt silinməyəcək

### Minlərlə azərbaycanlı “Ana harayı” abidəsi önünə gedərək öz ehtiramlarını ifadə ediblər

**Xocalı soyqırımının ildönümü hər il Azərbaycan və dünyanın bir çox ölkəsində qeyd olunur.** Bu tədbirlərdə ermənilərin Xocalıda törətdiklərini əks etdirən foto-stendlər, sənədli filmlər nümayiş olunur, soyqırımı həqiqətlərini əks etdirən kitablar sərgilənib.

Dünən minlərlə azərbaycanlı əllərində gül dəstələri ilə Bakıda Xocalı soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış ”Ana harayı” abidəsi önünə gedərək öz ehtiramlarını ifadə ediblər.

## Bu gün Moskvada yenə təmas olacaq

### Azərbaycan, Ermənistan, Rusiya baş nazir müavinlərinin növbəti görüşüdür

**Qarabağla bağlı üçtərəfli bəyanatda nəzərdə tutulan Azərbaycan, Ermənistan və Rusiya baş nazir müavinlərinin növbəti görüşü fevralın 27-də Moskvada keçiriləcək.**

Trend-in məlumatına görə, bunu Rusiya baş nazirinin müavini Aleksey Overçuk deyib.

O əlavə edib ki, Ermənistandakı hadisələrə baxmayaraq, rəsmi Yerevan da görüşdə iştirak edəcəyini təsdiqləyib.

# Çevriliş gözlənilmir

## Paşinyan hələ də arxasındakı 100 minlik böyük kütləyə güvənir

*Məlum olduğu kimi, Ermənistan Silahlı Qüvvələrinin Baş Qərargahının bəyanatından sonra ölkədə siyasi vəziyyət gərginləşib. Ordu rəhbərliyi Ermənistan Baş naziri Nikol Paşinyanın hazırkı taleyüklü dövrdə artıq adekvat qərarlar qəbul etmək iqtidarında olmadığını bildirərək onun istefasını tələb ediblər. Paşinyan isə bu bəyanatı "hərbi çevriliş cəhdi" adlandıraraq tərəfdarlarını meydana səsləyib.*

O, xalqa müraciətində vəzifədən getmək niyyətində olmadığını bildirib. ABŞ Dövlət Departamenti Ermənistanda bütün tərəfləri gərginliyi artırmamağa, hərbçiləri isə siyasətə qarışmamağa çağırıb. Dövlət Departamentinin rəsmisi Ned Prays Ermənistanda baş verənləri diqqətlə izlədiklərini bildirib: ”Bütün partiyalara əsas demokratik prinsipi xatırladırıq, dövlətlərin silahlı qüvvələri daxili siyasətə qarışmamalıdır. ABŞ Ermənistandakı demokratik prosesləri və institutları, demokratiyasını və suverenliyini dəstəkləməyə davam edir. Liderləri fikir ayrılıqlarını sülh yolu ilə həll etməyə çağırırıq”.

**Politoloq Ceyhun Əhmədli ”Şərq”ə açıqlamasında deyib ki, Ermənistandakı proseslər qarşıdurmanın yeni mərhələsidir.** Lakin ekspert hesab edir ki, Ermənistanda baş verənlər revanşistlərlə əks qüvvələr arasındakı qarşıdurma deyil. Çünki ordunun Baş Qərargah rəisi Orik Qasparyan revanşistlərdən yana çıxış etmir: ”Ümumiyyətlə, Ermənistanda revanşist düşüncədə olanların yenidən hakimiyyətə gəlməsi mümkün görünmür. Ermənilər keçmiş siyasi qüvvələrə ikinci dəfə etimad göstərməyəcək. Məsələ ondadır ki, Paşinyan indiyədək Rusiyanın 10 noyabr üçtərəfli sazişi ilə bağlı təlimatlarını həyata keçirirdi və hər hansı problem görünmürdü. Nə oldusa, son günlərdə oldu. Daha doğrusu, Serj Sarkisyanın Baş nazir Paşinyana ünvanladığı ittiham dolu ”İsgəndər” raketi və Paşinyanın ona cavabı fonunda proseslər gərginləşdi. İndi hər şey baş nazirin ətrafına nə qədər tərəfdaş, xalq dəstəyi toplayacağından asılıdır. Əgər Paşinyan əvvəlki dönəmlərdə olduğu kimi bu dəfə də ətrafında yüz minlərlə erməni yığa bilsə, o, hakimiyyətini qoruyub saxlaya biləcək. Ümumiyyətlə, xalqın iradəsi ortadadırsa, heç bir kənar ölkə, xarici qüvvə hansısa bir dövlətdə çevriliş edə bilmir. Hələlik görünən odur ki, Ermənistanda Paşinyanı dəstəkləyən böyük bir kütlə var”.

**“İndiki proseslər Rusiyanın özü üçün də çətin məcrada gedir”**



**“Ermənilər keçmiş siyasi qüvvələrə ikinci dəfə etimad göstərməyəcək”**

Analitik vurğulayıb ki, Paşinyan müharibədən sonra orduya, hərbi güc strukturlarına özünə yaxın adamları təyin etmişdi. Qasparyan özü Paşinyana o qədər də uzaq fiqur deyildi: ”Onun ”Qarabağ klanı” ilə ümumiyyətlə əlaqəsi yoxdur. Görünür, baş nazir özü çevrilişdən şübhələndiyi, yaxud Rusiyanın buna gedəcəyini zənn edərək Baş Qərargah rəisini və onun müavinlərini ordudan uzaqlaşdırmaq istəyib. Moskvanın Paşinyanın ”İsgəndər” raketləri ilə bağlı dediklərindən qıcıqlanması normaldır. Hətta Kremldə onun devrilməsi də müzakirə mövzusu ola bilər. Amma Rusiya rəhbərliyinin hələlik Paşinyanı əvəzləyəcək fiqur tapmadığı açıq-aydın görünür. Nə vaxtsa, erməni xalqı özü hökumətə qarşı yeni müxaliflər formalaşdırarsa, ortaya təzə siyasi fiqurlar çıxarsa, Moskva bu kartdan yararlana bilər. İndiki proseslər Rusiyanın özü üçün də çətin məcrada gedir”.

**C.Əhmədli Ermənistanda hərbi çevrilişin baş tutacağına inanmadığını deyib:** ”Ermənistanda hakimiyyəti dəyişmək üçün kütlənin dəstəyi şərtdir. 2018-ci mart-may aylarındakı proseslər onu göstərdi ki, erməni xalqının gözü açılıb. Çoxları gözləyirdi ki, müharibədə acı məğlubiyyətlə üzləşmiş Paşinyan hakimiyyətdən gedəcək, xalq onun istefasını tələb edəcək və s. Amma bunun əksi baş verdi. 2020-ci ilin dekabr ayında Ermənistana ”Gullap” şirkəti sorğu keçirdi. Nəticələr göstərdi ki, 38 faiz respondent Paşinyanın hakimiyyətdə qalmasını, 45 faiz isə getməsini istəyir. Fikir verirsizsə, arada o qədər böyük fərq yoxdur. Maraqlı məqam odur ki, bu yaxınlarda həmin şirkətin yeni sorğusuna əsasən, Paşinyanı dəstəkləyənlərin say nisbəti 40 faizə yaxınlaşıb. Deməli, Ermənistanda hər şey Paşinyanın arzuladığı istiqamətdə gedir. Çünki erməni xalqı birmənalı olaraq həm məğlubiyyətə, həm də digər problemlərə görə əsas günahı kimi keçmiş hakimiyyətləri görür. Əlbəttə, ölkədə Paşinyan hökumətinə qarşı çıxan kəsim də var. Amma onların etirazları radikal səviyyədə deyil”.

**İsmayıl Qocayev**

# İranlı jurnalistin təxribatçı sualına tutarlı cavab verildi

## “İran Türkiyə kimi həqiqi, səmimi qardaş dövlət deyil ki...”

Dünən Azərbaycan Prezidenti İlham Əliyev xarici jurnalistlər üçün videoformatda mətbuat konfransı keçirib. Tədbir zamanı ölkə başçısı təxminən 4 saat ərzində Azərbaycan, rus, ingilis, türk dillərində 35 media qurumu jurnalistinin 50-dən artıq sualını cavablandırıb.



İranın ”Mehr” agentliyinin jurnalistinin sualı prezidentin iradına səbəb olub. İranlı jurnalist İkinci Qarabağ müharibəsində terrorçu qrupların olması barədə sual verib.

**İlham Əliyevin cavabı belə olub:** ”Bir məsələyə aydınlıq gətirmək istəyirəm. Siz terrorçu qruplardan danışdınız, hansı məlumatlara istinad edirsiniz, hansı ölkələrdən alınmış məlumatlardan söhbət gedir?”.

*Jurnalist çətin vəziyyətə düşərək deyib:* ”Müxtəlif ölkələrin xəbər agentlikləri bu barədə yazırdılar. İcazənizlə onların adını sadalamayım”.

Prezident isə qeyd edib: ”Sizin sualınız ittiham formasındadır. Hər hansı məlumat haqqında danışarkən mənbə qeyd edilməlidir. Siz mənə dəqiq məlumat verə bilmirsiniz. Kimisə ittiham etmək asandır, siz onu sual formasında verə bilərsiniz, amma dediyinizin arxasında durmalısınız”.

Jurnalist daha da çətin duruma düşüb və ”gəlin ikinci sualıma cavaba keçək”.

*İlham Əliyev isə deyib:* ”Mən hesab edirəm ki, siz özünüz birinci sualınıza cavab verdiniz. Elə hesabatlar, məlumatlar yoxdur ki, müharibə zamanı hər hansı terrorçu qrup iştirak edib. Bunlar uydurulmuş məlumatlardır. Təəssüf edirəm ki, dost ölkənin jurnalisti belə suallar verir. Bizim Ordumuz torpaqlarımızı işğaldan azad edib”.

**Məlum vəziyyətlə bağlı ”Şərq”ə danışan Azərbaycan Demokratik Partiyasının (ADP) sədri Sərdar Cəlaloğlu deyib ki, qələbə qazandığımıza görə İran bizə meyillənib:** ”İran Türkiyə kimi həqiqi, səmimi qardaş dövlət deyil ki... Bəzən İranın maraqları Azərbaycanla ziddiyət təşkil edir, bəzən də Ermənistanla yaxınlıq etməyi daha uyğun hesab edirlər. Hər bir jurnalist öz dövlət maraqlarından çıxış edir. O da dövlət maraqlarından çıxış edərək belə münasibət bildirir.

*S.Cəlaloğu əlavə edib ki, iranlılar müharibədən əvvəl ermənilərlə eyni millətdən olduqlarını deyirdilər*: ”Faktiki olaraq qələbə qazanmışıq, dünyada nüfuzumuz artıb. Uzun illər Ermənistanla iqtisadi əlaqələr yaratmaları, hərbi cəhətdən də təsir etmələri göstərir ki, İranın Azərbaycanın güclənməsində marağı yoxdur”.

**Aygün Tahirqızı**

## Müharibəyə başlamağa heç bir imkanları yoxdur

### “Ermənilər qorxularından rus qoşunlarının Zəngəzurda yerləşməsini xahiş edirlər”



**Prezident İlham Əliyev dünən keçirdiyi mətbuat konfransında bir sıra mühüm məqamlara toxunub. O, Ermənistanın revanşist meyillərindən də danışaraq bildirib ki, düşmən qisas həvəsinə düşsə bu, ona baha başa gələcək:**

”Ermənistanın siyasi dairələri anlamalıdır ki, hər hansı bir qisas cəhdi Azərbaycan tərəfindən ciddi şəkildə cəzalandırılacaqdır.

Biz hər hansı ciddi bir təhlükə görsək, dərhal cavab verəcəyik. Ona görə də xəbərdarlıq edirəm ki, qisas cəhdləri olmamalıdır. 10 noyabr bəyanatı Ermənistan tərəfindən tam icra olunmalıdır. Tədricən, addım-addım sülh regiona gələcək”.

Yəni Ermənistan nə qədər ki, gec deyil, ağlını başına yığmalı, konstruktiv siyasət yeritməyə başlamalıdır. **Millət vəkili, politoloq Rasim Musabəyov rəsmi İrəvanın intiqam meyilləri barədə ”Şərq”ə danışdı:** ”Müharibəyə başlamaq üçün heç bir imkanları yoxdur. Ermənilər qorxudan rus qoşunlarının Zəngəzurda yerləşməsini xahiş edirlər. Belə olan halda hərbi əməliyyatları necə bərpa edə bilərlər? Yox, əgər ”dəlilik” eşqinə düşərlərsə, biz onları ”ağıllandıracağıq”. Bundan əmin olsunlar”.

**Kənan**




# Xocalını unutmamalıyıq

## “Onu həm də beynəlxalq ictimaiyyətə çatdırmalıyıq”

**Bu gün Xocalı faciəsinin növbəti ildönümüdür. Düz 29 il əvvəl yerli sakinlərə divan tutulub, soydaşlarımıza qarşı vəhşiliklər törədilib, şəhər yer üzündən silinib. Şagirdlərimiz həmin həqiqətləri indi tarix dərsliklərindən oxuyurlar.**

Əlbəttə, belə də olmalıdır. Çünki keçmişinə güllə atanı gələcək topa tutar. Biz keçmişimizi unutmamalı, tariximizə sahib çıxmalı və nəticə çıxarmalıyıq. Əks halda tarix bizi hələ çox sınağa çəkər...

Sevindirici haldır ki, dünyanın ayrı-ayrı ölkələrində yaşayan soydaşlarımız tarixi həqiqətlərimizin unudulmaması üçün əllərindən gələni edirlər.

**Rusiyanın Kursk vilayətindəki Azərbaycan icmasının rəhbəri Qasım Kərimov ”Şərq”ə açıqlamasında soyqırımın budəfəki ildönümünü fərqli aurada keçirdiyimizi bildirdi:** ”Biz Xocalı faciəsini nəinki unutdurmamalı, onu həm də beynəlxalq ictimaiyyətə çatdırmalıyıq. Çünki bu hadisə bəşəriyyətə qarşı cinayətdir. Biz bu il Xocalı soyqırımını bir az başqa ab-havada - qələbə sevincinin müşayiəti ilə qeyd etdik.

Bu isə Prezident, Ali Baş Komandanın müdrik siyasəti nəticəsində mümkün olub.

Hətta mən deyərdim ki, dövlət başçısı fövqəlgüc göstərdi. Azərbaycan həqiqətlərinin yayılmasında az da olsa mənim də xidmətim olduğuna görə fərəhliyəm.

Biz Rusiya Prezidentinə, bütün güc strukturlarına müvafiq qaydada müraciət etdik. İşimiz budur. Nə qədər ki, canımızda can var, vətənimizin rifahı, taleyi uğrunda mübarizə aparacağıq”.

**Kənan**

# Yaranan fürsətdən Azərbaycanın istifadəsini istəyənlər...

## Cümşüd Nuriyev: “...Sapı özümüzdən olan baltalardır”



**Ermənistandakı siyasi böhran yeni bir səviyyəyə yüksəlib. Müxalifət əvvəllər hər gün mitinq keçirib Nikol Paşinyanı siyasi səhnədən ”süpürməyə” çalışırdısa, indi ordu Baş nazirin istefası tələbi ilə çıxış edir. Buna cavab olaraq Paşinyan ”Facebook” səhifəsindən Ermənistan ordusunun Baş Qərargah rəisi Onik Qasparyanın vəzifəsindən azad edildiyini elan etdi.**

Paşinyan ordunu hərbi çevrilişə cəhddə günahlandırdı və tərəfdarlarını mitinqə çağırdı. İrəvandakı son olaylar bəzi məsələlərin yenidən gündəmə gəlməsinə də şərait yaradıb. Bəzi iddialar var ki, Azərbaycan fürsətdən istifadə edib, digər ərazilərimizi də nəzarətə götürə bilər.

**Siyasi elmlər doktoru, politoloq Cümşüd Nuriyev ”Şərq”ə açıqlamasında bildirib ki, belə iddiaların irəli sürülməsi çox təhlükəli bir kampaniyadır.**

Onun sözlərinə görə, Azərbaycanın yaranmış vəziyyətdən istifadə edib addım atmasına dair səslənən fikirləri daha çox Rusiyanın maraqlarına xidmət edən adamlar yayırlar: ”Azərbaycana belə bir problem lazım deyil. Əvvəla ölkəmiz istər Laçın dəhlizi, istərsə də Xankəndi olsun, bütün hallarda düzgün siyasət yürüdüb, bu ərazilərə tam yiyələnəcək. May ayından etibarən həmin ərazilərə qayıtmağa başlayacağıq. Bu, birmənalı olaraq belədir.

Sözügedən iddiaların gündəmə gətirilməsi hakimiyyətdə bir qrup şəxsin işidir. Qorxurlar ki, korrupsiyaya görə həbs edilmə növbəsi onlara gəlib çatacaq. Ona görə də ölkədə qarşıdurma yaratmağa çalışırlar.

Bunun üçün yeganə yol odur ki, Azərbaycan Ordusu Xankəndi və Laçın koridoruna hücuma keçsin. Təbii ki, bölgədə də rus ordusu dayanıb. Beləliklə, Azərbaycan əldə etdiyi bütün nailiyyətləri itirsin”.

*C.Nuriyev qeyd edib ki, bu fikir söyləyənlərin məqsədi ölkədəki daxili vəziyyəti qarışdırmaqdır:* ”Bir məqamı dərk etmək lazımdır: neçə illər ərzində mübarizə aparıldı, bütün xristian dünyası Ermənistanı müdafiə etdi. Azərbaycan Prezidenti və ordumuz 44 gün ərzində ermənilərin əlindən hər şeyi aldısa, deməli, ölkə başçısı peşəkar bir siyasətçidir.

Baş verənlər Ermənistanın daxili işidir. Sözügedən ideyanı yayanlar Azərbaycanı sevmirlər. Onların əsas məqsədi ”5-ci kolon”dan aldıqları sifarişləri icra etməkdir. Belələrinin bir adı var: rəhmətlik İsmayıl Şıxlı demişkən, ”sapı özümüzdən olan baltalardır”.

**Yeganə Bayramova**

# Prezidentin Zəngəzurla bağlı çıxışı tarixi reallıqlara söykənir



## Boran Əzizli: “Dövlət başçısının hər bəyanatında mühüm mesajlar var”

**Prezident İlham Əliyev dünən yerli və xarici jurnalistlər üçün videoformatda keçirdiyi mətbuat konfransında Azərbaycan-Ermənistan sərhədində düşməndən azad olunmuş torpaqlarımız barədə də danışıb. Dövlət başçısı vurğulayıb ki, Şərqi Zəngəzurda, Qubadlıda, Zəngilanda, ümumən işğaldan azad edilmiş sərhədyanı ərazilərdə Ermənistan qoşunları yoxdur və orada sülhdür. Ölkə rəhbəri tarixi Azərbaycan torpaqlarında heç bir insidentin yaşanmadığını vurğulayıb:**

”Bəzi kəndlər hansı ki, onların bir hissəsi Azərbaycan ərazisində yerləşir, orada insident yaşanmır. Çünki orada Ermənistan Ordusu, Sərhəd Qoşunları mövcud deyil. Biz o ərazilərdə Ermənistanın dinc əhalisinə qarşı heç bir addım atmırıq. Əksinə, bəzi Ermənistan şəhərlərini birləşdirən yol Azərbaycan ərazisindən keçir və ermənilər bu yoldan yararlana bilirlər. Biz həmin yolda ”Azərbaycana xoş gəlmişsiniz” yazılı bir lövhə quraşdırmışıq. Anlayıram ki, bu, Ermənistanda qıcıq yaradır. Ancaq biz onu başqa niyyətlə yerləşdirmişik. Biz istəyirik ki, bizə məxsus olan qaytarılsın”. Məlumat üçün deyək ki, dövlət başçısının ilk dəfə ”Şərqi Zəngəzur” ifadəsini işlətməsi sosial şəbəkələrdə müzakirələrə səbəb olub. Çünki ermənilərin özlərinə ”dövlət” qurduqları - Zəngəzur, Dərələyəz, Göyçə, İrəvan və digər ərazilər tarixi Azərbaycan bölgələridir. Buna rəğmən, caq biz Ermənistana qarşı torpaq iddiası irəli sürmürük, halbuki sürə bilərik. Çünki indiki Ermənistanın yerləşdiyi ərazi qədim türk, Azərbaycan torpaqlarıdır” fikirləri ilə dəfələrlə bu məsələyə toxunub və fikirlərini bəyan edib. Zəngəzur məsələsi isə bir az fərqlidir.

1920-ci il 10 avqustda Rusiya KP-nin Qafqaz Bürosu Azərbaycanın bolşevik rəhbərliyinin razılığı olmadan Naxçıvanın Şərur-Dərələyəz bölgəsini Ermənistana vermək barədə qərar çıxarıb. Qarabağ və Zəngəzur isə Azərbaycanla Ermənistan arasında ”mübahisəli ərazilər” elan olunub. Zəngəzurun Ermənistana verilməsi 1920-ci il noyabrın 30-da keçirilən Azərbaycan KP-nin MK Siyasi və Təşkilat bürolarının birgə iclasının qəbul etdiyi qərarla həll edilib. Bu mahalda məskunlaşanların böyük hissəsi azərbaycanlılar olub. Zəngəzur bölgəsini 2 yerə: - Qərbi Zəngəzur qəzası və Şərqi - əhalisinin kürdlərdən ibarət olmasına görə ”Kürdüstan” qəzasına bölmək təklif edilirdi. Qafan, Gorus, Qarakilsə (Sisian), Mehri və ”Kürdüstan” qəzasından (Zəngilan, Qubadlı və Laçını) ibarət mahalda XX əsrin əvvəllərində 149 türk, 91 kürd və 81 erməni kəndi var idi. Nəticədə Zəngəzur qəzasının təqribən yarısına qədəri Azərbaycan SSR tərkibində qalıb. Lakin 1920-ci ilin 1 dekabrında Azərbaycanın Zəngəzur mahalının böyük hissəsi Moskva rəhbərliyinin qərarı ilə Ermənistana verilib. 1988-ci ildə təkcə Zəngəzurda deyil, Göyçədə, Dərələyəzdə, İrəvanda, Vedidə - indiki Ermənistan adlanan torpaqlarda yaşayan azərbaycanlılar dədə-baba yurdlarından qovulublar. Kütləvi terrora məruz qalan azərbaycanlıların son nümayəndələri məcburiyyət qarşısında qalıb Zəngəzuru tərk edəndən sonra, burada onlara məxsus yüzlərlə tarixi, maddi-mədəniyyət abidələri ermənilər tərəfindən dağıdılaraq məhv edilib. Zəngəzurun Ermənistanda qalan hissəsi 3 bölgəyə - Sünik, Vayots-Zor və Qeqarqunik əyalətlərinə bölünüb. Əyalətin Azərbaycanda qalan hissəsində isə Zəngilan, Qubadlı və Laçın rayonları yaradılıb. 1992-93-cü illərdə isə Zəngəzurun bu əraziləri də ermənilər tərəfindən işğala məruz qalıb.

Ermənistana qarşı torpaq iddiası irəli sürmürük. Prezident İlham Əliyev ”Bizim ata-baba torpağımız olan İrəvan xanlığı, Zəngəzur mahalı, digər torpaqlar indi Ermənistan dövləti üçün torpaq olub. Bunlar bizim tarixi torpaqlarımızdır, an-



**Tarixçi-alim Boran Əzizli ”Şərq”ə açıqlamasında bildirib ki, Prezident İlham Əliyevin ifadələri göstərir ki, dövlət başçısı qədim torpaqlarımızın tarixini kifayət qədər dərindən bilir.** Alimin sözlərinə görə, dövlət başçısının hər bəyanatında mühüm mesajlar var: ”Prezident tarixi hadisələri çox dəqiqliklə araşdırır, çıxışlarında mühüm faktları dilə gətirir. Qədim yurdumuz olan Zəngəzurun ermənilərə peşkəş edilməsi barədə çox danışılıb. 1920-ci ilin əvvəlində bolşevik Rusiyası tərəfindən Zəngəzur vilayətinin 405 min desyatin ərazisi Ermənistan SSR-yə verilib. Bu addım Naxçıvanı ana Vətəndən ayrı salmaq məqsədi daşıyırdı və Azərbaycan üçün ağır fəlakət idi. Bir məqamı xüsusi qeyd edim ki, Rusiyanın Qafqaza gəlişinə qədər erməni və azərbaycanlılar arasında ziddiyyət, qarşıdurma olmamışdı. Lakin Rusiyanın Ermənistan ”dövləti” yaratmaq fikrinə düşməsindən sonra iki xalq arasında qəfil düşmənçilik başladı. Ermənilər qədim dövrlərdən etibarən Qaraqoyunlu, Ağqoyunlu və Səfəvi dövlətinin tərkibində rahat, təhlükəsiz şəkildə yaşayıblar. Əfsuslar olsun ki, Rusiyanın Cənubi Qafqazda möhləmlənmək cəhdi iki xalq arasında qarşıdurmanın yaranmasının əsasını qoyub. Bu baxımdan Prezidentin çıxışı tamamilə doğrudur və tarixi reallıqlara söykənir. Dövlət başçısının qədim torpaqlarımızla bağlı faktlara diqqət çəkməsini alqışlayırıq”.

**İsmayıl Qocayev**



# Dilavər Əzimli aparatdan ayrılmayıb

## Alim uzun müddət bu şəkildə yatacaq

**Koronavirusa yoluxan tarixçi-alim Dilavər Əzimli FHN-in Zığdakı Modul tipli xəstəxanasında müalicə alır. Bir müddətdir ki, alim amansız virusla mübarizə aparır.**

*D.Əzimlinin sağlıq durumu ilə bağlı ”Şərq”ə danışan onun həyat yoldaşı Arzu Qazıyeva tarixçinin hələ də EKMO(ECMO) aparatına qoşulu olduğunu söyləyib:* ”Uzun müddət bu şəkildə yatacaq. Bir ara yaxşılaşma müşahidə olundu, amma sonra dayandı. Müalicəsi davam edir. Ciyərin nə vaxt fəaliyyətə başlayacağını deyə bilmirlər. Bir az uzun prosesdir. Vəziyyəti ağır-stabil qiymətləndirilir”.

**Samirə**

# Son sutkada 219 nəfərdə koronavirus aşkarlanıb

## 180 nəfər sağalıb, 4 nəfər vəfat edib



Azərbaycan Respublikasının ərazisində COVID-19 ilə bağlı son vəziyyət

| Ümumi | | Bu gün 26.02.2021 | |
|---|---|---|---|
| Ümumi yoluxanların sayı | 233989 | Yeni yoluxanların sayı | 219 |
| Ümumi sağalanların sayı | 228479 | Yeni sağalanların sayı | 180 |
| Aktiv xəstə sayı | 2297 | Bugünkü test sayı | 6908 |
| Ümumi test sayı | 2583362 | Bugünkü ölüm sayı | 4 |
| Ümumi ölüm sayı | 3213 | | |

Koronavirus İnformasiya Portalı koronavirusinfoaz KoronaVirus İnformasiya portalı KoronaVirus info

**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 219 yeni yoluxma faktı qeydə alınıb, 180 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan ”Şərq”ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 4 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 233 989 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 228 479 nəfər müalicə olunaraq sağalıb, 3 213 nəfər vəfat edib, aktiv xəstə sayı 2 297 nəfərdir.

*Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 6 908, ötən müddət ərzində isə ümumilikdə 2 583 362 test aparılıb.*







# Türkiyədən yeni silahlar alınır

## Bu, Azərbaycan üçün böyük hərbi üstünlükdür

**Prezident İlham Əliyev dünən yerli və xarici jurnalistlər üçün keçirdiyi mətbuat konfransında mühüm məsələlər barədə danışıb.**

Həmçinin qardaş ölkə ilə əməkdaşlığa toxunan dövlət başçısı bildirib ki, Türkiyədən yeni müasir silahlar alınacaq. Əlbəttə, bu, ölkələrimiz arasındakı tərəfdaşlığın, qardaşlığın növbəti təzahürü kimi qiymətləndirilməlidir. Biz rəsmi Ankara ilə bütün sahələrdə olduğu kimi, hərbi sənayedə də sıx əməkdaşlıq edirik.

**Məsələ barədə ”Şərq”ə fikir bildirən ehtiyatda olan polkovnik Şair Ramaldanovun fikrincə, bu, bizim üçün böyük dividenddir:** ”Azərbaycan hərb sənayesi yaranandan Türkiyə ilə tərəfdaşlıq edir. İndi də bizim hərb sistemimizdə Türkiyənin texnikasından geniş istifadə olunur. Bu mənada Bayraqdarları xüsusi vurğulamaq lazımdır. Həmin silahlardan idarəçilikdə, optik sahələrdə geniş istifadə olunur. Ümumiyyətlə, Prezident, Ali Baş Komandan İlham Əliyevin şəxsən rəhbərliyi ilə hərb sənayemizin inkişafına xüsusi diqqət göstərilir, müasir avadanlıqlar alınır. Beləliklə, biz təkcə Türkiyə üçün deyil, digər ölkələrdən ötrü də maraqlı tərəfdaşıq”.

**Ş.Ramaldanov gələcək planlardan da danışdı:** ”Azərbaycan və Türkiyənin eyni məhsulun istehsalı ilə bağlı birgə layihəsi var. Fikrimcə, bu barədə yaxın vaxtlarda açıqlama veriləcək. Eyni zamanda işğaldan azad olunmuş ərazilərin minadan təmizlənməsi işində də Türkiyənin texnikaları bizə çox kömək olur. Bir sözlə, Prezidentin söylədiyi fikirlər iki qardaş ölkənin əməkdaşlığını bir daha təsdiq etdi”.

**Kənan**

# Ermənistandakı hadisələr...

## Kreml: Hələ ki, Qarabağla bağlı razılaşmanın icrasına təsir göstərməyib

**Ermənistanda baş verən hadisələr hələ ki, Dağlıq Qarabağla bağlı razılaşmanın həyata keçirilməsinə təsir göstərməyib.**

APA-nın Moskva müxbirinin xəbərinə görə, bunu Kremlin mətbuat katibi Dmitri Peskov ”İrəvandakı vəziyyətə görə Moskva və Dağlıq Qarabağ razılaşmasının pozulmasına təhdid görürmü” sualına cavab verərkən deyib.

”Xeyr, hələ ki, hər şey həyata keçirilir. Ermənistanda baş verən hadisələrə baxmayaraq, Qarabağla bağlı razılaşmaların həyata keçirilməsi yolunu tutmaq vacibdir”, - deyə Kremlin sözçüsü vurğulayıb.

# Müharibə zamanı ailəsi ilə danışmayıb

## Sadiqlə birgə döyüşənlərin əksəriyyəti şəhid olub



**"Fikri bizdə qalar, kövrələrik deyə əlaqə yaratmırdı. Təkcə bibim oğlu ilə soraqlaşıb"**





**"Son dəfə deyib ki, mən düşmən səngərində şəhid olacam. İmkan verməm ki, düşmən bizim səngərə yaxınlaşsın"**

Şəhidlərimizdən yazmağa davam edirik. Adətən onlar haqqında danışmaq çətindir. Çünki özünü ən uca məqamlarının qarşısında aciz hiss edirsən, iki cümləni zorla, boğularaq, qəhərlənərək dilə gətirirsən. Yazmaq da eyni hissləri yaşadır adama. Ürəyin yanır və bu odu-alovu gözünün yaşı da söndürmür. Onlarla ayrı-ayrı tanış olmaq və sizə tanıtmaq isə bizim ən ümdə vəzifəmizdir.

Bugünkü yazımızın baş qəhrəmanı - şəhid Azayev Sadiq Xubyar oğlunun həyat yoluna nəzər salaq.

O, Quba rayonunun Qonaqkənd qəsəbəsində 11 avqust 1992-ci ildə dünyaya göz açıb. Aslan Aslanov adına orta məktəbdə təhsil aldıqdan sonra 2010-cu ildə hərbi xidmətə yollanıb. İgidimiz atasını vaxtsız itirib, 3 bacının bir qardaşı olub. Uşaqlığı dağlarda, at belində keçib. Atasının tüfəngini fürsət tapdıqca götürüb, güllə atarmış.

Bu cəsarətli Vətən oğlu 2016-cı ildə orduda gizir rütbəsi ilə çalışmağa başlayıb. Beyləqan rayonunda Haramı düzündə 3 ildən çox xidmət edib. Vətən müharibəsinə komandir kimi qatılıb. Füzuli uğrunda gedən döyüşlərdə mərdcə şəhadətə ucalıb. Silahdaşlarının sözlərinə görə, Sadiq onları mühasirədən çıxarıb, özü şəhadət şərbəti içib.

Bir döyüş yoldaşı danışır ki, Sadiq yeganə insan olub ki, minamyotu səngərin içində qoydurub, ermənilərə atıb: "Döyüş vaxtı bizi ayırdılar, aramızda 100 km məsafə vardı. Deyirdi ki, qoyma, əsgərlərə nə isə olsun".

Sadiqin həyatını xilas etdiyi silahdaşlarından biri nəql edir: "Mən yaralananda Sadiq başımın üstə durub, qışqırırdı ki, təxliyyə harda qaldı axı? Onun səyi nəticəsində yardım gəldi, məni çıxartdılar. Bu heç vaxt yadımdan çıxmaz.

**"Şərq"lə həmsöhbət olan şəhidin bacısı Mələk xanım deyir ki, o, müharibə zamanı ailəsi ilə danışmayıb:** "Fikri bizdə qalar, kövrələrik deyə əlaqə yaratmırdı. Təkcə bibim oğlu ilə soraqlaşıb. Son dəfə deyib ki, mən ya neytralda, ya da düşmən səngərində şəhid olacam. İmkan verməm ki, düşmən bizim səngərə yaxınlaşsın. Dediyi kimi də olub. Çox şücaətlər göstərib. Qardaşımgilin yaxınlığında digər posta düşmən basqın edib, mühasirəyə salıb. O, təkbaşına çıxıb və ordakıların dadına yetişib. Ona deyiblər ki, getmə, onların vəziyyəti çox pisdir. Təkbaşına nə edəcəksən? O isə qulaq asmayıb. 20-dən çox əsgəri ölümdən qurtarıb. Həmin əsgərlər söyləyir ki, Sadiq gəlməsə, bizi minamyotla vuracaqdılar və birimiz də sağ qalmayacaqdıq. Minamyotçu ermənini və daha bir neçəsini vurub. Açıq, üzbəüz döyüşdə, neytralda 6 metrlik məsafədən başından güllə yarası alıb. Danışdıqlarım onun döyüş yolunun sadəcə cüzi hissəsidir. Çünki silahdaşları bizə gələndə də, yazanda da xanım olduğumuz üçün çox detallı məlumat vermirlər. Amma deyirlər, tək onu bilin ki, Sadiq əvəzolunmaz insan idi. Döyüş yoldaşlarına, əsgərlərinə qarşı həssaslığı hər adamda olan bir xüsusiyyət deyil. Əsgərləri şəhid olmasın deyə özünü sipər edib. Onun haqqında danışanda həyəcanlanıb, təsirlənirəm. Deməli olduğum sözlərin çoxunu dilə gətirə bilmirəm".

*Mələk xanım deyir ki, Sadiqlə döyüşənlərin əksəriyyəti şəhadətə yüksəlib:* "Bir neçəsi də yaralıdır və müalicə alırlar. Sağlığında anamı ziyarətə gəlirlər, qardaşımın məzarı üstə gedirlər".

Qeyd edək ki, Sadiq Azayev ölümündən sonra "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.

**Samirə Ərəblinski**

# İkinci Qarabağ savaşı yolumuzu göstərdi

### Azərbaycan Ordusu bundan sonra üstünlüyü Türkiyə və NATO modelinə verəcək



**"Türkiyə ilə hərbi sahədə iş birliyimiz davam edəcək. Türk ordusu NATO-da güc baxımından ikinci ən güclü ordudur. Biz Azərbaycanda türk ordusunun kiçik modelini yaratmaq əzmindəyik".**

Bu sözləri mətbuat konfransında Prezident İlham Əliyev iki ölkə arasındakı hərbi perspektivdən danışarkən deyib. Ölkə başçısı onu da əlavə edib ki, Türkiyə ilə Azərbaycan arasında qanunvericilik bazası var: "Elə sənədlər var ki, qarşılıqlı hərbi yardım məsələləri təsbit edilir. Azərbaycana təhdid yarananda bizə arxa duran qardaş Türkiyə olacaq. Müharibənin ilk günündən Türkiyə Azərbaycana dəstək oldu. Qardaşım, sayın Ərdoğanın sözləri böyük siyasi dəstək oldu. Bu dünyaya siqnal oldu ki, "kənarda durun!". Türkiyənin Müdafiə naziri Akar, xarici işlər naziri Çavuşoğlu, digər yüksək vəzifəli şəxslər birmənalı dəstək nümayiş etdirdilər. Türkiyə ilə Azərbaycan iki qardaş ölkə, bir-birinə ən yaxın ölkələrdir. Odur ki, çağdaş türk ordu modeli bizim üçün ən məqbul modeldir".

**Ali Baş Komandanın fikirləri haqqında "Şərq"ə danışan hərbi ekspert Ədalət Verdiyev deyib ki, Qarabağ problemi ilə əlaqədar Azərbaycan daim ehtiyacdan artıq silahlı qüvvələr saxlamağa məcbur idi:** "Vətən müharibəsi zamanı səfərbərlik və qismən hərbi vəziyyətin elan olunması ilə ölkəmiz əlavə resursları da orduya sərf edərək bu sayı maksimuma çatdırdı. Hazırda Qarabağ münaqişəsi demək olar ki, həllini tapıb. Ermənistan ordusunda Azərbaycana ciddi müqavimət göstərəcək potensial qalmayıb. Belə olduğu üçün Azərbaycan səfərbərliklə orduya cəlb etdiyi heyəti tərxis etdi. Bir-iki ay sonra isə xidmət müddəti bitən şəxsi heyət də ordudan buraxılacaq. Bundan sonrakı mərhələdə isə Azərbaycan daha kompakt, lakin daha böyük texniki imkanlara malik peşəkar ordu yaradacağı ehtimal olunur. Biz artıq Türkiyə modelindən son döyüş əməliyyatlarında uğurla istifadə etdik, onun üstün tərəflərindən yararlandıq. İkinci Qarabağ savaşı da göstərdi ki, keçmiş Sovet doktrinası üzərində qurulan ordular müasir təmassız müharibələrin tələblərinə tam cavab vermir, effektivliyi də azdır. Ona görə indi Azərbaycan Ordu quruculuğunda üstünlüyü Türkiyə, doyalısıyla NATO modelinə verəcək. Ordunun silahlanmasında daha çox təmassız müharibə vasitələrinin və idarəolunan sursatların tətbiqi gözlənilir. Ümumilikdə isə bu tam doğru yanaşmadır.

Birgə istehsal sahələrinin fəaliyyəti də gözlənilir. Zənnimcə, yaxın iki il ərzində ordumuzun reformaları həyata keçəcək, Azərbaycanın hərbi doktrinası da mövcud vəziyyətə, ordunun vəzifə və imkanlarına uyğunlaşdırılacaq".

**Samirə Ərəblinski**

# Peşə təhsili önə çıxa bilmir

## Gərək əmək bazarının tələblərinə cavab verən yeni sistem formalaşsın

**Ölkədə peşə təhsilinə maraq göstərənlərin sayı ildən-ilə artmaqdadır. Təhsil naziri Emin Əmrullayev də "Gələcək üçün peşə təhsili və təlimi" layihəsinin təqdimatı zamanı bildirib ki, bu il əvvəlki illərə nisbətən peşə təhsilini seçənlərin sayında 27 faiz artım müşahidə olunub. O qeyd edib ki, gənclərin peşə təhsilinə olan marağını artırmaq məqsədilə 35 ümumi təhsil müəssisəsində peşə təmayüllü siniflər də açılıb.**



Bu günləri peşə təhsillinə maraq nə səbəbdən qaynaqlanır? Peşə təhsilində daha çox nələrə üstünlük verilməlidir? Nə üçün ali təhsil alan gənclərimiz peşə təhsili alanlardan fərqli olaraq iş tapa bilmirlər?

**Bu barədə "Şərq"in suallarını cavablandıran təhsil eksperti Kamran Əsədov bildirib ki, Azərbaycanda ali təhsil müəssisələrində əmək bazarının tələblərinə cavab verən kadr hazırlığı demək olar ki, tam şəkildə həyata keçirilmir:** "Universitetlərimizin məzunlarının yalnız 42 faizi ali təhsilini başa vurduqdan sonra işlə təmin olunur. Bu ona görədir ki, onların bilik və bacarıqları əmək bazarının tələbinə cavab vermir. İlk növbədə orta və ümumtəhsil müəssisələrində təhsil alan şagirdlərin bilik və bacarıqları əmək bazarının tələblərinə cavab verməlidir. Lakin göründüyü kimi, universitet məzunlarının yalnız 42 faizi işlə təmin oluna bilir. Orta ümumtəhsil məktəblərini bitirənlərin yalnız 40 faizi ali təhsil almağa gedir. Hesab edirəm ki, məhdud sayda orta ümumtəhsil məktəblərində peşə təmayüllərinin açılması heç bir effekt verməyəcək. Birincisi, ora gedən uşaqların sayı tam şəkildə formalaşmayacaq. İkincisi, orada bu tədrisi həyata keçirəcək müəllimlər və resurslar yoxdur. Üçüncüsü də bizim orta ümumtəhsil məktəblərimizin maddi-texniki bazası

### "Məhdud sayda orta ümumtəhsil məktəblərində peşə təmayüllərinin açılması heç bir effekt verməyəcək"

standartlara cavab vermir və ümumiyyətlə, yoxdur. Hesab edirəm ki, buna vəsait ayırmaq sadəcə vaxt itkisidir".

*Təhsil eksperti qeyd edib ki, ümumiyyətlə, Azərbaycanda texniki peşə təhsili sisteminə maraq aşağı səviyyədədir:* "İnkişaf etmiş ölkələrdə məzunların 40-60 faizi ümumi orta təhsildən sonra ilkin texniki peşə təhsili müəssisələrinə daxil olduğu halda, Azərbaycan üçün bu göstərici 11 faizdir. Ölkədə 5500 nəfərdən artıq işçi heyətinə malik olan 116 dövlət və iki özəl texniki peşə məktəbi və kolleci fəaliyyət göstərir. Bu məktəb və kolleclərin qeydiyyatdan keçmiş və 150-dən artıq müxtəlif fənn və ixtisas üzrə təhsil alan 23800-dən artıq tələbəsi var. Azərbaycanda ilkin texniki peşə təhsili sistemində bir çox problemlər mövcuddur. Texniki peşə məktəbləri və kolleclərində tədris olunan proqramlar əksər hallarda eyni olur və proqramlar təkrarlanır. Digər mövcud problemlərdən biri də bir çox təhsil müəssisələrinin əsasən qaçqın və məcburi köçkün ailələrinin yaşadığı yerə çevrilməsidir. İlkin peşə təhsili müəssisələrinin binaları olduqca köhnəlmiş vəziyyətdədir və dövlət büdcəsindən maliyyələşmə mexanizmləri qeyri-müəyyəndir. Məktəb və kolleclərdə istifadə edilən dərslik və tədris planları çox vaxt müasir tələblərə cavab vermir. Münasib maliyyələşmə mexanizmlərinin və əlaqədar hüquq normalarının, eləcə də təhsil müəssisələrinin fəaliyyətləri üçün qabaqcıl monitorinq və qiymətləndirmə mexanizmlərinin olmaması və işçi heyətinin təlim səviyyəsinin qeyri-müəyyən olması da problemlər arasındadır. Bir çox hallarda müxtəlif sahibkarlıq tiplərinə aid olan müəssisələrlə texniki peşə təhsili müəssisələri arasında əlaqələrin zəif olması, ümumi təhsil müəssisələrində peşə təmayüllərinin olmaması və təhsil müəssisələrinin əmək bazarının ehtiyaclarına cavab verə bilməməsi kimi problemlərlə də qarşılaşılır".

*K.Əsədov hesab edir ki, Azərbaycan tez bir zamanda əmək bazarının tələblərinə cavab verə biləcək yeni və daha cəlbedici ilkin texniki peşə təhsili sistemi imici formalaşdırmalıdır:* "Hazırda məzunlarla əmək bazarının tələbləri arasında kəmiyyət və keyfiyyət baxımından böyük uçurum var. Bu addım ölkənin müasirləşdirilməsinə və beynəlxalq müstəvidə rəqabətə davamlılığının təkmilləşdirilməsinə kömək edəcək. Yeni texnologiyaların yaradılması və enerjiyə qənaət, alternativ enerji və yaşıl texnologiya daxil olmaqla texnoloji və ekoloji istehsal tələbləri baxımından tələb olunan iqtisadi və sosial dəyişiklikləri sürətləndirən innovasiyaların təqdim edilməsi də bu addımın tərkib hissələri olmalıdır. Tədris prosesini müasirləşdirmək üçün texniki sahə üzrə lazımi bacarıq və biliklərə malik olan daha çox müəllim yetişdirilməlidir. Səmərəsizliyin və ancaq özəl sektorun inkişafının dəstəklənməsinin qarşısını almaq üçün dövlət texniki peşə təhsili sistemi səmərələşdirilməlidir. Müasirləşdirmə təkmilləşdirilmiş hüquq normaları vasitəsilə müasir tələblərə, texniki peşə təhsili işçilərinin təkmilləşdirilmiş tədris prosesinə, maliyyə dəstəyi və maddi-texniki təminatın təkmilləşdirilməsi, eləcə də təkmilləşdirilmiş idarəetmə strukturlarına əsasən həyata keçirilməlidir. İlkin texniki peşə təhsili sistemində çalışan əməkdaşların təkmilləşdirilmiş tədris, təkrar tədris və professional irəliləyiş proseslərindən keçmələrinə, maddi baxımdan daha yaxşı motivasiya olunmalarına, eyni zamanda texniki sahə üzrə müəllimlər üçün fəaliyyətlərinin qiymətləndirilməsi yolu ilə dərəcələr üzrə və rəqabətə əsaslanan əmək haqqı miqdarlarının yaradılmasına ehtiyac var. Texniki peşə təhsili sisteminin dəyişməsi üçün digər mühüm sahə maliyyə dəstəyi və maddi-texniki təminatın təkmilləşdirilməsidir. Biz çoxmənbəli maliyyə sxemləri tətbiq etməli və təhsil müəssisələrinin özlərini maliyyələşdirməsi yolu ilə, müvafiq hökumət fondlarından və beynəlxalq dəstək proqramlarından səmərəli şəkildə istifadə edərək ilkin texniki peşə təhsili müəssisələrinin maddi-texniki təminatını qismən təkmilləşdirməklə büdcədənkənar vəsaitlərin əldə edilməsinə nail olmalıyıq".

### "Texniki peşə məktəbləri və kolleclərində tədris olunan proqramlar əksər hallarda eyni olur və proqramlar təkrarlanır"

**Aynurə Pənahqızı**

# Toy və yas mərasimlərinə icazə verilməlidir



## Fazil Mustafa: "İcazə verin 20-30 nəfərlə də olsa camaat məclisini keçirsin"

**Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı jurnalistlərə açıqlamasında deyib ki, dini mərasimlər və toy məclislərinin bərpası ilə əlaqədar müvafiq addımlar atılacaq.**

Mövzu ilə bağlı "Şərq"ə danışan millət vəkili Fazil Mustafa isə qeyd edir ki, Mübariz bəyin açıqlaması həmin məsələ ilə bağlı müsbət düşüncənin olmasının göstəricisidir: "Toy və yas mərasimlərinin gecikdirilməsi çox yanlış düşüncədir. Yaxın bir zamanda buna icazə verilməlidir. Bu istiqamətdə mütləq addım atılmalıdır. Uzun müddətdir ki, insanlar övladına toy edə bilmir. Restoranda olmasa da olar. İcazə verin 20-30 nəfərlə də olsa camaat məclisini keçirsin. Bununla da mövzu qapansın.

Bir aydan sonra Müqəddəs Ramazan ayı başlayır. İnsanların bir qismi doğru dini düşüncəyə sahib olmadığına görə həmin müddət ərzində toy etməkdən çəkinir. Bu səbəbdən bir ay müddətində vətəndaşlara toy edə bilmək şansını vermək lazımdır. Təbii ki, məclislərin keçirilməsinə nəzarət mütləqdir.

Mərasim zamanı insan sayının çox olmamasına riayət edilməlidir. Mübariz Qurbanlının açıqlama verməsi də bu yöndə müsbət fikirlərin olduğunu göstərir. Sadəcə, buna praktikada əməl etmək və konkret qərar vermək gərəkdir".

**Aytac Ali**

**Bir müddət öncə tibb elmləri üzrə fəlsəfə doktoru Rəşid Mahmudov koronavirusa yoluxmuşdu. O, infeksiyanın öhdəsindən gələrək sağlamlığına qovuşub.**



# "...Az qala ölmüşdüm"

## Rəşid Mahmudov sağalacağına inanmırdı

"Şərq" Rəşid müəllimlə əlaqə saxlayaraq hazırkı sağlıq durumu ilə maraqlanıb. R.Mahmudov sağalmasında "Gömrük" hospitalının böyük rolunun olduğunu söyləyib: "Oranın işçiləri çox qayğılı və yaxşı çalışırlar. İnanın, ölünü dirildirlər. Onların baş həkimi də, onun müavini də mənim tələbəm olub. Maska ilə gəlirdilər deyə tanımırdım. Gündə iki dəfə məni yoxlayırdılar. Hətta Avropada, Amerikada belə xəstəxana yoxdur. 24 saat işləyirlər. Tibb bacıları qabiliyyətli, insanpərvərdilər. Başqa bir xəstəxanadan bir xəstə gətirdilər, vəziyyəti ağır idi. Onu da sağaltdılar. Hər birinə təşəkkür edirəm. Dövlət və dövlətçilik budur. Hər kəs öz işini mükəmməl görsə, dövlətimiz və dövlətçiliyimiz də inkişaf edər. Səhhətimə gəlincə, düzü, sağalacağıma inanmırdım. Məni təcili yardım ilə digər bir xəstəxanaya apardılar, cihaza qoşdular. Bir maşından digərinə keçənə qədər az qala ölmüşdüm. İndi əvvəlki kimi gümraham, sağlamam, fəaliyyətimi davam etdirirəm".

**Samirə**

# Baş nazir legitimliyini qorumağa can atır



Rusiya Prezidenti Vladimir Putinlə Ermənistanın Baş naziri Nikol Paşinyanın telefonla danışıb. Telefon danışığı Ermənistan tərəfinin təşəbbüsü ilə baş tutub.

"Danışıqlar zamanı Ermənistandakı vəziyyət müzakirə olundu. Putin Ermənistanda asayişin və əmin-amanlığın qorunması, vəziyyətin qanun çərçivəsində həll edilməsi lehinə danışdı. Dövlət başçısı, həmçinin, bütün tərəfləri təmkinli olmağa çağırdı", - deyə Peskov bildirib.

Görünür, Paşinyan köhnə adətindən əl çəkmir. Yenə telefonu əlindən yerə düşmür. Bu isə "quyruğunun qapı arasında qalmasının" göstəricisidir...

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu Ermənistan baş nazirinin Putinə zəngi barədə "Şərq"ə danışdı:** "Paşinyan bu zənglə rəqiblərinə göstərmək istəyirdi ki, Kreml qanuni hökuməti tanıyır. Onun bu günlərdə Vaşinqtonla, Parislə təmasa girəcəyini də istisna etmirəm. Bildiyiniz kimi, Rusiya dövlət başçısı ümumi sözlər deməklə, sabitlikdə maraqlı olduğunu bildirməklə kifayətləndi. Əslində həqiqətən belədir. Putinin Paşinyandan xoşu gəlməsə də, vətəndaş qarşıdurmasının başlanmasında maraqlı deyil. O, Ermənistan baş nazirini cəzalandırır. Məqsədi isə Paşinyanı tamamilə itaətkar etməkdir".

> "Erməni generalların iqtidara qarşı itaətsizliyi də ciddi məsələdir. Bunun Moskvanın razılığı ilə reallaşdığı qənaətindəyəm"

**E.Şahinoğlunun fikrincə, Ermənistan iqtidarının vəziyyəti getdikcə çətinləşəcək:** "Paşinyan məğlub ölkənin baş naziri olsa da, reytinqi az deyil. Dünənki mitinqdə müxalifətin 5 min, Paşinyanın isə 10 min tərəfdarının olması dediyimiz fikrin təsdiqidir. Deməli, baş nazirə dəstək var. Amma o, hakimiyyətdə qalmağı bacarsa da, vəziyyəti getdikcə çətinləşəcək. Çünki ölkədə iqtisadi vəziyyət pisləşir. Erməni generalların iqtidara qarşı itaətsizliyi də ciddi məsələdir. Bunun Moskvanın razılığı ilə reallaşdığı qənaətindəyəm".

**Kənan Novruzov**

## Paşinyan Kremldən sonra Vaşinqton və Parislə də təmasa keçəcək

## Rusiya fərqli mövqe göstərdi

### Türkiyə Ermənistandakı proseslərə daha doğru münasibət sərgilədi



**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Ermənistandakı olaylara münasibət bildirib. O qeyd edib ki, Ermənistanda hərbçilərin çevrilişə cəhd etməsi qəbuledilməzdir:** "Biz hər cür çevrilişə qarşıyıq. Xüsusilə hərbi çevrilişləri qəbul etməyimiz mümkün deyil. Bir idarəçilik dəyişikliyinə gediləcəksə, bunu Ermənistan xalqı etməlidir".

**Politoloq Əhəd Məmmədli qardaş ölkənin İrəvandakı hadisələrə baxışını "Şərq"ə dəyərləndirib. Analitik vurğulayıb ki, Türkiyə və Rusiya Ermənistanda baş verənlərdə bir-birinin əleyhinə çıxış etdi:** "Türkiyə hərbi qiyamın əleyhinə olduğunu açıqladı. Rusiya İrəvandakı hadisələrin daxili məsələ olduğunu bildirdi. Amma başqa ölkələrdə, məsələn, post-sovet məkanında belə hallar olanda Rusiya bu cür mövqe bildirmirdi. İndi isə özü kənardan Ermənistanda yaşananlara müdaxilə edir. Paşinyan ayaqda qala bildi, xalqı meydana çağırdı. Baş verənlərdə Türkiyənin mövqeyinin daha doğru olduğu üzə çıxdı. Düzdür, ola bilsin ki, Rusiyanın Paşinyanı devirmək məqsədi yoxdur. Sadəcə, Paşinyana xəbərdarlıq edildi. Lakin bu olanlar perspektivdə Ermənistanda cərəyan edəcək proseslərə təsir edəcək".

**Yeganə Bayramova**

## "Gördüklərim hələ də xatirəmdə canlanır"

### Rza Deqqəti: "Qarabağ müharibəsində gördüklərimi unuda bilmirəm"



**"Qarabağ müharibəsində gördüklərimi unuda bilmirəm, gördüklərim hələ də xatirəmdə canlanır".**

Bunu məşhur fotojurnalist Rza Deqqəti ADA Universitetində Xocalı soyqırımının 29-cu ildönümü ilə bağlı anım tədbirində çıxışında deyib.

Yanvar faciəsində Azərbaycana gəldiyini xatırladan fotojurnalist həmin dövrdə bura, Bakıya xarici jurnalistin gəlməsinin çox çətin olduğunu deyib: "Yanvar faciəsindən sonra 1992-ci ildə müharibənin başladığını, Xocalı qırğını barədə eşitdim və yenidən Azərbaycana gəldim. Vəziyyətin necə ağır olduğunu gördüm. Yüz minlərlə qaçqın və məcburi köçkün gördüm. Onlar ac idi, evsiz idi, onlar evlərindən torpaqlarından məcburi çıxarılmışdı".

Müharibə dövründə çəkdiyi fotoları təqdim edən fotojurnalist bu fotolar barədə, onların tarixi barədə məlumat verib. R.Deqqəti həmin dövrdə müharibə əsirlərinin dəyişdirilməsi prosesində iştirak etdiyi deyib.

O bildirib ki, erməni və azərbaycanlı əsirlərinin dəyişdirilməsi zamanı həmin əsirləri görərkən əsirlik dövründə onlara qarşı davranışdakı fərqi görmək çətin deyildi: "Mən Ermənistanın qaytardığı azərbaycanlı əsirlərin vəziyyətini, onların travmasını gördüm".

*Fotojurnalist həmçinin bildirib ki, o bir sıra münaqişələrdə Burundi, Livan, İran-İraq, Balkan müharibələrində olub:* "Lakin mən burda gördüklərimi hələdə xatırlayıram, bu faciəli idi".

Xocalı faciəsini xatırlayan fotojurnalist deyib ki, azərbaycanlıların cəsədlər tanınmaz hala salınmışdı, onlara işgəncə verilmişdi.

O, belə fotoların beynəlxalq məhkəmələrə təqdim olunmalı, beynəlxalq ictimaiyyətə çatdırılmalı olduğunu deyib.

# Torpaq bizimdir, qanun da bizimdir

"Qarabağda rəsmi dil məsələsi ilə bağlı deyə bilərəm ki, bu, manipulyasiya növüdür". Bunu Azərbaycan Prezidenti İlham Əliyev dünən yerli və xarici jurnalistlər üçün videoformatda keçirdiyi mətbuat konfransında deyib. "Dağlıq Qarabağı hər kəs Azərbaycanın tərkib hissəsi kimi tanıyır. Düşünürəm ki, bu, cinayətkar xunta rejiminin son nəfəsidir, son cəhdləridir.



Azərbaycanda yeganə rəsmi dil Azərbaycan dilidir. Ona görə də Azərbaycan ərazisində başqa dilin rəsmi statusu ola bilməz. Eyni zamanda biz heç bir dilə qarşı hər hansı məhdudiyyət qoymuruq. Bildiyiniz kimi, rus dili Azərbaycanda çox geniş istifadə olunur. Azərbaycanda 340-a yaxın rus bölməli məktəb mövcuddur. Ermənistanda isə bu rəqəm sıfırdır. Yalnız orada rus hərbi kontingentinin uşaqları üçün məktəb var. Onlar rus dilini qadağan edirlər. Bütün dillər kimi, erməni dili də Azərbaycanda qorunacaq", - deyə dövlət başçısı bildirib.

**Prezidentin Qarabağda rəsmi dil məsələsi ilə bağlı çıxışına münasibət bildirən siyasi-şərhçi Azər Həsrət "Şərq"ə açıqlamasında vurğulayıb ki, konstitusiyamıza görə, dövlət dilimiz Azərbaycan dilidir.** Eyni zamanda ekspert əlavə edib ki, Azərbaycanda yaşayan milli azlıqlar, etnik qrupların nümayəndələri də öz dillərində danışa, onu inkişaf etdirə, hətta öz dillərində təhsil ala bilərlər: "Təbii ki, bu məsələdə Azərbaycan vətəndaşı olan ermənilər də istisna deyil. Yəni onlar öz dillərində həm təhsil ala, həm də dillərini yaşada bilərlər. Qeyd edim ki, rus dili Azərbaycanda Sovet dönəmindən miras qalmış və geniş istifadə olan dillərdəndir. Hətta deyərdim ki, xarici dillərdən birincisidir. Rus dilinə münasibət Azərbaycanda təhkimlidir. Yəni Ermənistandan fərqli olaraq bu dilə qarşı düşmən münasibət yoxdur. Azərbaycan dövləti istər rus millətindən olan vətəndaşlarımız, istərsə də rus dilini ana dili kimi qəbul edən insanlarımız üçün hər cür şərait yaradıb. Buna baxmayaraq, Azərbaycanda konstitusiyaya görə, yalnız Azərbaycan dili rəsmi dövlət dili kimi istifadə olunur. Yəni bu dildə bütün rəsmi yazışmalar və dövlət işləri həyata keçirilir. Heç kim başqa bir dildə bu işləri həyata keçirə bilməz, o cümlədən də Xankəndi mərkəz olmaqla Qarabağın kiçik bir hissəsində yaşayan erməni əhalimiz də".

> "Heç kim Azərbaycan ərazisində rus dilinə əlavə status verilməsini tələb edə bilməz"

**A.Həsrət əlavə edib ki, ermənilər Azərbaycan ərazisində hansısa xarici dilə, o cümlədən də rus dilinə əlavə üstünlük, status verilməsini də tələb edə bilməzlər:** "Birincisi, ona görə ki, ermənilərin dili erməni dilidir, rus dili deyil. Onlar erməni dilinin qorunması qayğısına qalırlarsa, biz bunu anlayışla qarşılayırıq. Lakin xarici bir dilə əlavə status verilməsi ilə bağlı təşəbbüs irəli sürmələri təbii ki, qəbul edilən deyil. Azərbaycan dövləti də məhz buna uyğun davranmaqdadır. Ona görə də Qarabağda qalan erməni vətəndaşlarımız ağıllarını başlarına toplamalıdırlar. Yəni onlar Azərbaycanın əsəblərini tarıma çəkməkdən əl çəkməlidirlər. Onsuz da bütün dünya qəbul etdi ki, o torpaqlar Azərbaycan torpaqlarıdır. Hətta bu gün orada sülhməramlı kimi yerləşən Rusiya əsgərləri də Azərbaycan ərazisində olduqlarını qəbul edirlər. Onlar Azərbaycana aid olmayan bir ərazidə olduqlarını iddia etmirlər. Rusiya dövləti sülhməramlılarını da Azərbaycan ərazisinə göndərib. Bu iki dövlət arasında əldə edilən razılaşma bunu bir daha təsdiqləyir. Ona görə də heç kim, o cümlədən də ermənilər hansısa xarici dilə hansısa statusun verilməsi kimi mənasız cəfəng iddialarda olmamalıdırlar. Azərbaycan dövləti hər zaman dövlət dilini üstün tutur, eyni zamanda xarici dillərin öyrənilməsinin qayğısına qalır. Həmçinin ölkə ərazisində yaşayan milli azlıqların və etnik qrupların nümayəndələrinin də dillərinin istifadəsinə şərait yaradır. Bundan artıq Azərbaycan nə edə bilər? Bütün dünyanın ən aparıcı demokratiyalarında belə bəzən bu cür məsələlər bizdəki kimi mükəmməl həll edilmir. Ona görə də ermənilər təxribatlardan əl çəkməlidirlər".

**Aynurə Pənahqızı**

## Ermənilər təxribatlarından əl çəkməlidirlər

## İctimai və dövlət maraqlarının müdafiəsi



# Dövlət şəhid ailələrinin, qazilərin yanındadır

## *“Bu qarşılıqlı inam və sevgi bizə böyük qələbə qazandırdı”*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Vətən müharibəsində bizə qürur hissi yaşadan, Azərbaycan tarixinə şərəfli Qələbə səhifəsi yazanlara xalqın sevgisi, sayğısı dövlət qayğısı ilə eyni səviyyədədir. Xalqımız şəhidlərin xatirəsini necə əziz tutur, qazilərimizə sayğı ilə yanaşırsa, dövlətimiz də eyni münasibəti göstərir. Şəhid ailələri, qazilər, müharibə iştirakçıları dövlət tərəfindən hər cür diqqət və qayğı ilə əhatə olunub. Vətən müharibəsinin gedişində bütün dünyaya örnək olan xalq-dövlət birliyimiz müharibədən sonrakı dövrdə də ən yüksək səviyyədə davam edir.

Bunu dövlət tərəfindən şəhid ailələri, müharibə iştirakçıları və əlillər üçün yaradılan şərait, onların ehtiyaclarının müəyyənləşməsi istiqamətində atılan addımlar sübut edir.

### Müharibə əlillərinin cəmiyyətə inteqrasiyası vacib məsələdir

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev bu günlərdə yaddaqalan 2 mərasimdə iştirak etdi. Əvvəlcə Şağan qəsəbəsində Reabilitasiya Pansionatının əsaslı təmirdən sonra açılışında, sonra isə Ramana qəsəbəsində istifadəyə verilmiş yaşayış kompleksində şəhid ailələri və müharibə əlillərinə mənzillərin verilməsi mərasimində. Dövlətimizin başçısı pansionatda yaradılan şəraitlə tanış oldu. Məlumat verildi ki, bu pansionat Ümummilli Lider Heydər Əliyevin tapşırığı ilə 2003-cü ildə istifadəyə verilib. Ötən il isə burada əsaslı təmir işləri görülüb. Yenidən qurulan 250 çarpayılıq pansionat ildə 5 min nəfərədək xəstə qəbul edə bilər. Bu tibb müəssisəsində ürək, qan-damar, oynaq-hərəkət, əsəb sistemi, endokrin xəstəliklərdən əziyyət çəkənlərə xidmət göstəriləcək. Əsas xidmətlər isə funksional diaqnostika, fizioterapiya müalicəsi, tibbi vannalar, müalicəvi bədən tərbiyəsi, sosial-psixoloji reabilitasiyadır. Burada müalicə alanların reabilitasiyasında müasir metodika ən qabaqcıl texnologiyanın təbiqi ilə paralel təşkil olunacaq.

Pansionatda Abşeronun iqliminə xas olan klimoterapiya bu müalicə ocağının əsas özəlliklərindən biridir. Burada mövsümə uyğun iqlimlə müalicə imkanları ilə yanaşı, fizioterapiyanın da demək olar bütün sahələri əhatə edilib.

Post-müharibə dövründə bu tip müalicə mərkəzlərinin əhəmiyyəti xüsusi nəzərə çarpır. Müalicə xidməti ilə bərabər, əlilliyi olan şəxslərin sosial statusunun bərpası, cəmiyyətə inteqrasiyası əsas məsələlərdəndir.

Müharibədən sonrakı dövrdə əlilliyi olan şəxslərin reabilitasiyası istiqamətində işlər sürətlənib. 210 qaziyə 1220 reabilitasiya vasitəsi verilib, 15 hərbçi yüksək texnologiyalı protezlə təmin edilib. Vətən müharibəsində yaralanmış şəxslərin 90 faizi ilə artıq evlərində görüş keçirilib. Amputasiyası olan 301 nəfərdən 109-nun protez ehtiyacları müəyyən edilib. Yaxın zamanda onların protezlə təmin olunması planlaşdırılır. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən şəhid ailələri, müharibədə yaralanmış şəxslər və onların ailə üzvləri sosial-psixoloji dəstək tədbirləri ilə də əhatə olunub. Nazirliyin tabeliyindəki Sosial Xidmətlər Agentliyinin psixoloq və psixiatrlardan ibarət qrupları son bir ayda 1400-dən çox ailə ilə görüşüb. Onlardan psixo-dəstək tədbirlərinə ehtiyacı olan ailələr üçün psixokorreksiya işləri üzrə seanslar təşkil olunur. Bir sıra şəxslər ehtiyaclarına uyğun ödənişsiz dərman preparatları ilə təmin edilibləр. Həmçinin Agentliyin ”Onlayn psixoloji dəstək xidməti” tərəfindən 300-ə yaxın zəng üzrə vətəndaşlara dəstək göstərilib. Nazirliyin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin Yevlax və Naftalan Reabilitasiya Mərkəzlərində isə şəhid ailəsi üzvlərindən, yaralanmış hərbçilərdən, şəhid müharibə iştirakçılarından, onların yaxınlarından ibarət 125 nəfərə sosial-psixoloji xidmətlər göstərilib. Şirvan Reabilitasiya Mərkəzində bu kateqoriyalardan olan 12 nəfər uzunmüddətli sosial-psixoloji reabilitasiyaya cəlb olunub.

Bakı Sağlamlıq Mərkəzində müalicə alan hərbçilərdən ehtiyac duyan bir qismi də Agentliyin mütəxəssislərindən ibarət qrup tərəfindən sosial-psixoloji xidmətlərlə təmin olunurlar.

Agentliyin Uşaq Reabilitasiya Müəssisələrində qeyd edilən kateqoriyalardan olan ailələrə və sosial-psixoloji reabilitasiyaya ehtiyac duyan uşaqlara da müvafiq xidmətlər göstərilir.

### “Minlərlə qazi hər il müalicə alacaq, reabilitasiya keçəcək”

**Şəhid ailələri və müharibə əlillərinə mənzillərin təqdim olunması mərasimində çıxış edən Prezident İlham Əliyev onların daim dövlət qayğısı ilə əhatə olunacağını bildirdi:**

- Bu gün Bakının Ramana qəsəbəsində şəhid ailələri və müharibə əlilləri üçün yeni yaşayış kompleksi istifadəyə verilir. Bu münasibətlə sizi təbrik edirəm. Burada otuz bina inşa edilibdir. Binaların hamısı müasir səviyyədə, yüksək keyfiyyətlə tikilib, mənzillər də çox genişdir, işıqlıdır. Uşaq bağçası, 1200 şagird yerlik məktəb inşa edilir. Yəni yaşayış üçün bütün imkanlar var və bu münasibətlə sizi ürəkdən təbrik edirəm. Müharibədən cəmi üç ay yarım keçib, ancaq şəhid ailələri və müharibə əlilləri üçün artıq belə gözəl yaşayış kompleksi, şəhərcik inşa olunub, təqdim edilib. Bu gün eyni zamanda Şağan qəsəbəsində reabilitasiya mərkəzinin əsaslı təmirdən sonra açılışı da olub. Orada da minlərlə qazi hər il müalicə alacaq, reabilitasiyadan keçəcək, öz sağlamlığını bərpa edəcək. Eyni zamanda, müharibə dövründə əlini, qolunu itirmiş qazilərimiz üçün də ən müasir protezlər sifariş edilibdir. Mənə bu gün verilən məlumata görə, 300-dən çox qazimiz bu protezlərlə təmin ediləcək. Bizim ayaqlarını itirmiş qazilərimizin artıq bir neçəsi bu protezlərlə təmin edilib və onlar normal həyata dönə biliblər. Bu protezlər dünyanın aparıcı şirkətlərinin məhsuludur, ən müasir protezlərdir. Bu protezlər imkan verəcək ki, bizim qazilərimiz normal həyata qayıda bilsinlər.

Prezident qeyd etdi ki, dövlət şəhid ailələri, müharibə əlilləri üçün əlindən gələni edir: ”Mənim bu sahədəki siyasətim birmənalıdır. Son 17 il ərzində şəhid ailələri ilə müxtəlif tədbirlərdə dəfələrlə görüşmüşəm. Bu günə qədər 9200-ə yaxın şəhid ailəsi, müharibə əlili dövlət tərəfindən mənzillərlə təmin edilib. Təkcə keçən il 1572 mənzil verilibdir. Bu il isə 3 minə yaxın mənzil veriləcək. Beləliklə, həm Birinci, həm İkinci Qarabağ müharibəsində şəhid olmuş övladlarımızın Bakıda, Sumqayıtda, Abşeron rayonunda yaşayan ailələrinə bu ilin sonuna qədər mənzillər veriləcək. Yəni bu proqramı biz Bakı, Sumqayıt və Abşeron rayonunda bu ilin sonuna qədər tam icra edəcəyik. Digər şəhər və rayonlarımızda yaşayan şəhid ailələri üçün binaların, fərdi evlərin tikintisi davam etdirilir. Əminəm ki, yaxın gələcəkdə bu proqram tam icra olunacaqdır. Onu da bildirməliyəm ki, müharibə əlillərinə 7200-ə yaxın minik avtomaşını verilib.

### “Heç bir şəhid ailəsi baxımsız qalmayacaq”

Prezident faktlara əsaslanan çıxışı ilə dövlətin şəhid ailələri, müharibə əlillərinə qayğısını bir daha təsdiqlədi. Bu faktlar həm də onu göstərir ki, Azərbaycan bu sahədə də dünya miqyasında ən qabaqcıl yerlərdədir. Prezident də bunu vurğuladı və dedi ki, dünyada müharibələr çox olub, itkilər çox olub. O qədər də uzaq olmayan tarixə nəzər salsaq, görərik ki, müxtəlif ölkələrdə müharibələrdə həlak olmuş insanların yaxınlarına heç vaxt bizdəki qədər qayğı, diqqət göstərilməyib. Onu da bildirməliyəm ki, Ermənistan ordusunda da itkilər olub və İkinci Qarabağ müharibəsində müxtəlif rəqəmlər səslənir. Bizdə olan məlumata görə, təqribən 6-7 min işğalçı məhv edilibdir. Onların birinin də ailəsinə Ermənistan dövləti heç bir yardım etməyib. Ümumiyyətlə, Ermənistanda bizdə olan proqram mövcud deyil. Müharibədə həlak olmuş insanların yaxınlarına nəinki ev, bir daxma da verilmir. Hər şey müqayisədə ölçülür. Bizim bu sahədəki siyasətimiz birmənalıdır. Bu siyasət mənəvi normalara əsaslanır və Vətən uğrunda canından keçmiş insanların yaxınları dövlət tərəfindən bundan sonra da qayğı ilə, diqqətlə əhatə olunacaqlar”.

**Görüşdə iştirak edən şəhid Milli Qəhrəman İlqar İsmayılovun anası Fatma Qocayeva isə dedi ki, hər bir şəhid ailəsi dövlət qayğısı ilə əhatə olunacağına əmindir:**

- Bizim şəhidlərin ruhu bir də ona görə şaddır ki, cənab Prezident, Siz şəhid ailələrinə böyük qayğı ilə yanaşırsınız, onların hər bir ehtiyacını çox həvəslə ödəyirsiniz. Bu gün bizi buraya dəvət edib ehtiyacı olan şəhid ailələrinə ev bağışlamaqla yenidən öz qayğınızı göstərirsiniz. Xalqımız bunu duyur, hiss edir ki, biz Prezidentimizin himayəsindəyik. Mən həmişə demişəm, heç kəs qorxmasın ki, gedib şəhid olaram, ailəm baxımsız qalar. Bizim Prezidentimiz hər bir şəhid ailəsinin qayğısına qalır.

### “Dövlətlə vətəndaş arasında qarşılıqlı etimad və sevgi var”

**Politoloq Elçin Mirzəbəyli də bu fikirdədir ki, dövlət tərəfindən şəhid ailələri, müharibə əlilləri və onların ailə üzvlərinə qayğı göstərilməsi, ehtiyaclarının qarşılanması Azərbaycan dövlətinin bu təbəədən olan insanlara xüsusi qayğısının göstəricisidir:**

- Azərbaycan dövləti hər zaman şəhid ailələrinin, müharibə əlillərinin, Vətən uğrunda mücadilə aparanların yanında olub və onlara xüsusi diqqət və qayğı göstərib. Vətən müharibəsindən sonra icra edilən işlər də bu prosesin tərkib hissəsi və davamıdır. Cənab Prezidentin şəhid ailələrinə, qazilərə, yaralı döyüşçülərimizə qarşı nümayiş etdirdiyi həssaslıq dövlətlə vətəndaş arasında qarşılıqlı etimadın, inam və sevginin yaranmasına təsir göstərən ən böyük amildir. Vətəndaş əmindir ki, dövlət həmişə onun yanındadır. Məhz bu qarşılıqlı inam və sevgi bizə böyük qələbə qazandırdı. Müharibədən sonra da dövlət tərəfindən icra edilən sosial proqramlar bu bağlılığı daha da möhkəmləndirir.

**Məlahət Rzayeva**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Türkiyə və Rusiya ilə ticarət yüksək səviyyədədir

*İndi isə Şərq ölkələri ilə ticarət həcmini və iqtisadi əməkdaşlığı artırmalıyıq*



Yanvarda Azərbaycanın ən çox ticarət əməliyyatları apardığı Körfəz ölkələri sırasında ilk üçlükdə İran, Səudiyyə Ərəbistanı və Birləşmiş Ərəb Əmirlikləri qərarlaşıb. Azərbaycanın bir ay ərzində İranla ticarət dövriyyəsinin həcmi 30 milyon dollar olub. İrandan idxalın dəyəri isə 28,3 milyon dollar təşkil edib.

Dövlət Gömrük Komitəsinin məlumatında bildirilib ki, ay ərzində ölkəmizin İranla ticarət dövriyyəsinin dəyəri 30 milyon ABŞ dolları, Səudiyyə Ərəbistanı ilə 1,8 milyon dollar, BƏƏ ilə 1 milyon dollar olub. İran və Səudiyyə Ərəbistanı ilə ticarət dövriyyəsi 2020-ci ilin müvafiq ayına nisbətən artıb.

Bu ölkələr, eyni zamanda Azərbaycanın ən çox məhsul idxal etdiyi Körfəz ölkələri sırasında da ilk üçlükdədir.

**Komitənin açıqladığı statistik rəqəmlərlə bağlı "Şərq"ə danışan "Altay" Sosial-İqtisadi Araşdırmalar Mərkəzinin rəhbəri Elçin Bayramlı deyib ki, yaxın qonşumuz olan İranla ticarətin çox böyük potensialı var. Ancaq ekspert düşünür ki, biz bu potensialdan demək olar ki, istifadə etmirik:** "Əslində açıqlanan göstərici sıfır səviyyəsindədir. Yəni İranla ticarət "yoxdur" deməkdir. Halbuki, biz İranla ticarətdən, iqtisadi əməkdaşlıqdan çox böyük fayda götürə bilərik. Çünki İrana qarşı sanksiyalar qoyulub və onun idxala böyük ehtiyacı var. Həm də bir çox məhsullar orada qlobal səviyyədəki qiymətlərdən xeyli ucuzdur. Üstəlik, bizim sənayemiz üçün də hazır və böyük bazardır. İranla ticarət həcmimiz milyonlarla yox, milyardlarla ölçülməlidir. Son illərdə İranla müəyyən müştərək müəssisələr yaradılır, hətta avtomobil zavodu belə açılıb, lakin bu çox azdır. Potensial həddən artıq böyükdür. Dərman sənayesində, maşınqayırma və texnika malları istehsalında, ərzaq malları, tikinti məhsulları və sair sahələrdə əməkdaşlığın böyük perspektivi var".

*E.Bayramlı Səudiyyə və BƏƏ-yə gəldikdə isə bildirib ki, azad iqtisadi zona və beynəlxalq ticarət bazası olduğuna görə, Dubaydan çox mal idxal edirik:* "Əsasən texnika malları idxal edirik. Amma yenə də 1 milyon çox cüzi rəqəmdir. 1,8 milyon dollar çox kiçik rəqəmdir. Kiçik şirkətin bir partiya mal gətirməsi və ya aparması deməkdir. Ümumiyyətlə, hesab edirəm ki, Şərq ölkələri ilə ticarət həcmini və iqtisadi əməkdaşlığı artırmalıyıq. Xüsusən, İran, İndoneziya, Çin, Hindistan, Pakistan, Qazaxıstan, Yaponiya, Misir və s. ölkələrlə iqtisadi əməkdaşlıq genişlənməlidir. Türkiyə və Rusiya ilə isə ticarət həcmi onsuz da yüksəkdir. Ticarətimiz də diversifikasiya edilməlidir ki, bir-iki ölkədən asılı olmayaq".

**İsmayıl Qocayev**



## Azərbaycan iqlim dəyişmələri ilə mübarizə üçün plan hazırlayır

**Bu gün Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər (ETSN) naziri Muxtar Babayev və Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının (BMTİP) Rezident nümayəndəsi Alessandro Frakassetti Azərbaycanın iqlim dəyişmələrinə qarşı dayanıqlılığını artıracaq birgə layihənin başlanmasını elan edib.**

BMTİP-dən Trend-ə bildirilib ki, üç illik layihə Azərbaycan hökumətinə üç prioritet sektor - su, kənd təsərrüfatı və sahilyanı ərazilərin iqlim dəyişmələrinə uyğunlaşması tədbirlərində dəstək olacaq.

Yaşıl İqlim Fondunun maliyyələşdirdiyi və BMTİP-nin həyata keçirdiyi layihə hökumətin mövcud institusional, texniki və maliyyə potensialını gücləndirəcək, bu isə öz növbəsində orta və uzun müddətli iqlim adaptasiyası ehtiyaclarının Azərbaycanın milli inkişaf planlarına daxil edilməsini təmin edəcək.

## Mətbuat katibi işindən ayrıldı

Nərminə Kazımlı həyatına başqa bir şəhərdə davam edəcək



**Bakı Beynəlxalq Dəniz Ticarət Limanı QSC-nin mətbuat katibi Nərminə Kazımlı işindən ayırılıb. Axar.az xəbər verir ki, bu barədə o özü məlumat verib.**

N.Kazımlı qeyd edib ki, bu gün (dünən) Bakı Limanındakı son iş günüdür:

"Bundan sonra həyatıma başqa bir şəhərdə davam edəcəm. 5 il ərzində sizinlə birlikdə olmaq, dostluğunuz və əməkdaşlığımız çox gözəl idi. Hər birinizə heç vaxt unutmayacağım xoş xatirələrə görə təşəkkür edirəm!

Çox sevinirəm ki, sizin kimi insanları tanımaq, birlikdə işləmək və öyrəmək kimi bir şansım oldu".

## Xudavəng monastrı ermənilərə məxsus deyil



**Xudavəng monastrı ermənilərə məxsus deyil.**

Trend-in məlumatına görə, bunu jurnalistlərə açıqlamasında Əqli Mülkiyyət Agentliyinin İdarə heyətinin sədri Kamran İmanov deyib.

O deyib ki, bu barədə Agentlik tərəfindən xüsusi axtarış və tədqiqatlar aparılır: "Onun tikildiyi ərazi, monastır kompleksi barədə qədim mənbələrdə məlumatlar var. Bunlar qədim mənbələrdə "svordik" kimi göstərilən suvarların ərazilərində tikilib. Qədim yazılı abidələri götürsək, bunun kimə məxsus olduğunu görəcəyik. Biz hər il beynəlxalq konfranslar təşkil edir, abidələrin bizə məxsus olduğunu beynəlxalq aləmin nəzərinə çatdırır, bu məsələləri işıqlandırırıq".

## Almaniyanın 350 məktəbində islam dini tədris olunacaq

Almaniya hökuməti gözlənilməz addım atıb. Qərarda qeyd olunur ki, Bavariya şəhərində məktəblərdə və kolleclərdə din və əxlaq dərslərinə islam dini əlavə edilsin. Orada yaşayan müsəlmanlar din dərslərini seçərkən islam dinində təhsil ala biləcəklər.



Seyid Camal Əzimbəyli: "Mən çoxsaylı Avropa ölkələrində olarkən özüm də dinimizə qarşı münasibətin yaxşıya doğru dəyişdiyinin şahidi olmuşam"

2021-2022-ci illər üzrə icraya başlayacaq qərar Bavariyanın 350 təhsil müəssisəsində tətbiq olunacaq.

**Tanınmış şərqşünas Seyid Camal Əzimbəyli "Şərq"ə qərarla bağlı fikirlərini danışarkən qeyd edib ki, Almaniyanın belə bir addım atması müsəlman ölkəsi olaraq bizi çox sevindirir:** "Düşünürəm ki, bir vaxtlar Qərbdə, Avropada islama baxış bütün müsəlman dünyasını narahat edirdi. Lakin son dövrlər Avropada tam bərabər şəkildə olmasa belə, qeyri-hökumət təşkilatları, bəzi hökumət qurumları tərəfindən islamla bağlı düşüncələr müsbətə doğru dəyişməyə başlayıb. Çünki artıq dini və milli kimliyindən asılı olmayan digər ölkələr də islamı dərk etməyə başlayıblar.

Mən çoxsaylı Avropa ölkələrində olarkən özüm də dinimizə qarşı münasibətin yaxşıya doğru dəyişdiyinin şahidi olmuşam. Doğrudan da bu çox uğurludur. Fikrimcə, həmin proseslər islamafob dövlətlərə də nümunədir. Əslində elə ölkələrə ən böyük örnək bizim öz ölkəmizdir. Azərbaycan dünyəvi dövlət olmaqla yanaşı həm də bütün dinlərə, irqlərə, mədəniyyətlərə hörmət edir. Ölkəmizdə bütün dinlərə və millətlərə dözümlülük, tolerantlıq, xoşgörü dünyanın heç bir ölkəsində olmayacaq qədərdir.

Müsəlman olaraq Almaniya dövlətinin belə bir addım atması bizi çox sevindirir. İnşallah ki, bu addımın gələcəkdə yüksələn xətt üzrə inkişafını mütləq görəcəyik. Çünki islam o dindir ki, Allah tərəfindən tərif edilir".

**Aytac Ali**

## 70 dollara yaxınlaşır

Azərbaycan nefti bahalaşır



**Azərbaycan neftinin qiyməti bahalaşır.**

"Azeri Light" markalı neftin bir barelinin qiyməti 0,21 dollar artaraq 66,98 dollar təşkil edib. Bu, ötən ilin yanvarından bəri maksimum göstəricidir.

"Brent" markalı neftin qiyməti 0,59 dollar geriləyərək 66,29 dollar, "Light" markalı neftin qiyməti isə 0,64 dollar ucuzlaşaraq 62,89 dollar olub.

*Qeyd edək ki, "Azeri Light" nefti keçən il aprelin 21-də minimuma enərək 15,81 dollar, 2008-ci ilin iyulunda isə maksimuma yüksələrək 149,66 dollar olub.*

## Yevlax sakini oğurluq etmək istədi

Elektrik cərəyanı vuraraq öldü



**Yevlaxda 31 yaşlı kişini elektrik cərəyanı vuraraq öldürüb.**

"Report" xəbər verir ki, hadisə rayonun Kolanı kəndində qeydə alınıb. Yevlax rayonunun Malbinəsi kənd sakini, 1991-ci il təvəllüdlü Vüsal Məmməd oğlu Mehrəliyev Kolanı kəndindəki taxıl və yonca sahələrinin suvarılması üçün istifadə edilən artezian quyularındakı transformatorun naqillərini oğurlamaq istəyib. Ancaq naqilləri kəsmək istəyərkən onu elektrik cərəyanı vurub və şəxs hadisə yerində ölüb. Mərhumun bundan öncə Tərtər və Yevlaxda da eyni əməlləri törətməkdə şübhəli bilindiyi ortaya çıxıb.

# Qəbələ cənnət olacaq, qazancımız da artacaq



"Qəbələ rayonuna - "Tufandağ" Qış-Yay Turizm İstirahət Kompleksi istiqamətində çəkilmiş dəmir yolu xətti hazırdır". Bunu "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov deyib. "Prezident nə vaxt istəsə onun açılışını edəcək", - o qeyd edib.

## *Dəmir yolu xəttinin çəkilməsi turist axınını dəfələrlə artıracaq*

**Milli Məclisin deputatı, iqtisadçı-ekspert Vüqar Bayramov "Şərq"ə açıqlamasında bildirib ki, yeni Qəbələ dəmir yolu xətti turizm infrastrukturunun yaxşılaşdırılmasına və turizm obyektlərinə rahat gediş-gəlişin təmin edilməsinə öz töhfəsini verəcək.** O vurğulayıb ki, həmin ərazilərə qatarla getmək reallaşandan sonra bu, kütləvi turizmə də müsbət təsir göstərəcək: "Qəbələ dəmir yolu xətti Azərbaycanda həm daxili, həm də xarici turizmin inkişafı baxımından çox vacibdir. Nəzərə alsaq ki, pandemiyadan öncə ölkəyə gələn turistlərin böyük bir qisminin məhz ziyarət etdiyi yerlərdən biri bura idi. Eyni zamanda bu bölgə Azərbaycan vətəndaşlarının da üstünlük verdiyi bölgələrdəndir".

*V.Bayramov əlavə edib ki, yeni dəmir yolu turizmin inkişafı ilə yanaşı eyni zamanda nəqliyyatın inkişafına da öz töhfəsini verəcək:* " Nəzərə almaq lazımdır ki, son illər ərzində Azərbaycanda nəqliyyatın sürətli inkişafı müşahidə olunur. Bu da turistlərin ölkə daxilində sərbəst və daha tez hərəkət etməsi baxımından vacib amildir. Əvvəllər Azərbaycanda turistik bölgələrə dəmir yolu xətti yox idi. Nəzərə alaq ki, dəmir yolu nəqliyyatı turistlər üçün daha cəlbedicidir. Dəmir yolu xəttindən istifadə etməklə ölkələrarası turizmdən də yararlanmaq mümkündür. O baxımdan da bu, həm də daxili turizmin inkişafını stimullaşdıracaq. Eyni zamanda Azərbaycana gələn xarici turistlərin sayına da müsbət təsir göstərəcək. Məhz həmin dəmir yolu xətti onların rahat şəkildə Qəbələyə səfər etməsinə imkan yaradacaq. Bu da nəticə etibarilə təbii ki, orda ictimai, iaşə və xidmət sektorunda çalışan sahibkarların daha çox gəlir və dövriyyəyə malik olmasına gətirib çıxaracaq. Eyni zamanda təbii ki, bu həm də nəqliyyat qovşağının inkişafına imkan verəcək və daxili nəqliyyat sisteminin inkişafı üçün yeni imkanlar yaradacaq. Bu baxımdan da dəmir yolu xəttinin çəkilməsi iqtisadi baxımdan əhəmiyyətlidir. Birmənalı şəkildə Qəbələ dəmir yolu xəttinin turizm, ictimai-iaşə sektorlarına müsbət təsiri olacaq".

**Aynurə Pənahqızı**

## Musa Yaqubun qardaşı dünyasını dəyişib



**Xalq şairi Musa Yaquba ağır itki üz verib.**

Publika.az xəbər verir ki, şairin qardaşı, 1947-ci il təvəllüdlü Saməddin Yaqubov gecə saatlarında dünyasını dəyişib. Məlumata görə, o, dünən infarkt keçirib. Təcili xəstəxanaya aparılsa da, onun həyatını xilas etmək mümkün olmayıb.

**Allah rəhmət etsin!**

## Rəmiş palataya köçürülüb

### Xalq artistinin səhhətində əvvəlkinə nisbətən xeyli irəliləyiş var



**Azərbaycanın xalq artisti, tanınmış gitara ifaçısı Rafiq Hüseynov (Rəmiş) palataya köçürülüb.**

Bu barədə APA-ya onun həyat yoldaşı Güllü Hüseynova məlumat verib.

O bildirib ki, R. Hüseynov hazırda palatada müalicəsini davam etdirir, səhhətində əvvəlkinə nisbətən xeyli irəliləyiş var.

*Qeyd edəki, R. Hüseynovun səhhətində xroniki xəstəliklərin kəskinləşməsi nəticəsində ciddi problemlər yaranıb. O, yanvarın 28-də Heydər Əliyev Fondunun xətti ilə Bakı Sağlamlıq Mərkəzinə yerləşdirilib.*

## 134 min 225 manat...

### AZTV "Diriliş Ərtoğrul"u bu vəsaitə tərcümə etdirir



**"Azərbaycan Televiziya və Radio Verilişləri" QSC bu gün "Diriliş Ərtoğrul" filminin Azərbaycan dilinə tərcümə olunması xidmətinin satın alınması ilə bağlı müqavlə bağlayıb.**

Qaynarinfo xəbər verir ki, kotirovka sorğusu əsasında imzalanan müqavilənin məbləği 134 225 manatdır.

Müqavilə fiziki şəxs Qurbanov İbrahim Vilayət oğluyla imzalanıb.

## "Vəziyyəti pisdir"

### Dilarə yanan aktyordan danışıb ağladı





**Yaşadığı mənzildə partlayış baş verməsi nəticəsində xəsarət alaraq xəstəxanaya yerləşdirilən Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrının aktyoru Cavid Telmanın vəziyyəti pisdir.**

Bu haqda aparıcı Elgiz Əkbər "Elgizlə izlə" proqramında deyib. Verilişə zəng edən Əməkdar artist Dilarə Əliyeva həmkarının yardıma ehtiyacı olduğunu söyləyib:

"Cavid bizim ailəmizin bir üzvüdür, çox üzüldük onun durumuna. Hər gün dua edirik. İnşallah, sağlığına qovuşar, gülər, zarafatlaşar. Onun üçün çox çətin durumdur. Vəziyyəti pisdir. İki körpə balası var".

*Qeyd edək ki, C.Telman hazırda 5 nömrəli Şəhər Klinik Xəstəxanasının Yanıq şöbəsindədir. Cavidə 3-cü dərəcəli yanıq diaqnozu qoyulub. Hazırda xəstəxananın reanimasiya şöbəsində müalicəsi davam etdirilən aktyorun bədəninin 70 faizi yanıb.*

# Osmanlı zamanında ilginc hadisələr yaşanıb

Osmanlı zamanında bir çox ilginc hadisələr baş verib. Bunları Rəşad Əmrah Qoçu "Tarihimizde qarip vakalar" adlı əsərində yazıb. "Şərq" da Türkiyə mediasına istinadən həmin olaylardan bir neçəsini sizə təqdim edir.



## *Əmrah Qoç əsərində tarixi olaylara yer verib*

Geliboluya səfər edən Sultan II Mahmud geri dönərkən Silivridə fırtınaya düşüb. Gəmisinin arxasında "Saltanat qayığı" var imiş. Fırtına zamanı qayıq çevrilir. Üzərində padşahın sapı almaslarla bəzədilmiş çətiri də varmış. Belə olduğu halda o da suya düşüb.

Avropada bir vaxt olaylar yaradan lalə bitkisi Osmanlıdan oralara gedib. Yəni o qədər təsirləniblər . Osmanlıda ağ laləyə " Dülbent lale" deyiblər, fransızlar isə "Tulipe" adlandırır.

Fatih Sultan Məhməd taxta çıxanda bir "kometa" görülüb. Papa da "Türk və müsəlman dostu iyrənc ulduz" deyə anatema edib. O ulduz isə "Halley Kometası" idi.

Sumatranın ən böyük kilsəsi üçün zang hazırlanmalı idi. Bunun üçün adadakı Osmanlı topu istifadə olunub. Topun üstündə də II Səlim "Tuğrası" var imiş. Bu top 16-cı əsrdə Sumatrla müsəlmanlarına kömək üçün türk ustaları tərəfindən tökülmüş üzərində də : "Bura müsəlamanların Türkiyəyə "tabiiyeti" əlaməti olaraq səlim padşahın tuğrası həkk olunub" yazılıb.

Əndərun tarixçisi Ata Bəy 9-11 yaşlarında ikən sünnət olacağı zaman atası onu böyüklərin əllərini öpməsi üçün ziyarətə aparır. Sədrazəm Hüsrəv Məhməd Paşa da ona bir fincan hədiyyə edir. Uşaq da fincan ona lazım olmaz deyə, sandığın bir küncünə atır. İllər sonra maddi cəhətdən sıxıntılar yaşayan zaman həmin hədiyyə yadına düşür.

Əvvəlcə bir bilənə göstərib, məsləhət alır. Demə, fincan Ming sülaləsindən qalma Çin çinisi, Məmluq sultanları dövrünə aid sənət əsəri imiş. Ata Bəy fincanı satıb borclarını ödəyir, qalan pulla da rifah içərisində yaşayır.

İstanbulun ən gözəl yerlərindən biri olan "Kız kulesi" bir dəfə həbsxana kimi işlədilib. Burada 18-ci əsrin adlı-sanlı vəzirlərindən Həkimoğlu Əli Paşa həbs edilərək oradan sürgünə göndərilib.

Qanuni dövründə yaşayan Hüsrəv Paşa çox həssas bir insan olub. Bir gün divanda sədrazam Süleyman Paşa ilə şiddətli münaqişəsinin ucbatından okunlanda dərin üzüntüyə qapılıb. Kədərdən yeməkdən-içməkdən kəsilib, aclıq aksiyasına başlayıb. Nəticədə dünyasını dəyişib, bu yolla "İntihar edən" ilk və tək insandır.

Yenə Həkimoğlu Əli Paşa haqqında məlumat. O, Kütahya valisi ikən ölüb və orda dəfn edilib. Əli Paşa İstanbulda hələ də öz adı ilə bilinən məscid inşa etdirib.

Öləndə də məscidin yanındakı türbədə dəfn olunmasını vəsiyyət edib. Buna da icazə verilib. Kütahyadakı qəbrindən çıxarılan nəşi Üsküdara gətirilib. Fəqət xalq böyük hörmət etdiyi bu vəzirə qarşı bir qarışıqlığa səbəb olacaq şəkildə "təzahürat"a hazırlandığından tabut Üsküdardan İstanbula gecə yarısı gətirilib və səssizcə torpağa tapşırılıb. Bu türbə indi hələ də "Kocamustafapaşada"kı Həkimoğlu Əli Paşa məscidində yerləşir.

**Samirə Ərəblinski**




## Levandovski həftənin futbolçusu seçilib

**UEFA Çempionlar Liqasının səkkizdəbir final mərhələsinin ilk oyunlarından sonra həftənin ən yaxşı futbolçusu bəlli olub.**

Bu ada azarkeşlər arasında aparılan səsverməyə əsasən, Almaniyanın "Bavariya" klubunun futbolçusu Robert Levandovski layiq görülüb.

Otuz üç yaşlı polşalı hücumçu İtaliyada "Latsio"nu 4:1 hesabı ilə məğlub etdikləri görüşdə fərqlənib.

## Neymar yenidən məşqlərə başlayıb



**PSJ-nin futbolçusu Neymar yenidən məşqlərə başlayıb.**

O, fərdi qaydada məşq edib. Braziliyalı hücumçunun Paris təmsilçisinin məşq bazasında qaçdığı bildirilib.

*Qeyd edək ki, Neymar fevralın 10-u Fransa çempionatında keçirilən "Caen"la matçda (1:0) zədələnib.*



## Tyerri Anri istefa verdi

**Fransa millisinin sabiq futbolçusu Tyerri Anri baş məşqçisi olduğu Monreal İmpact klubundan ayrılıb.**

Bu barədə klubun saytı məlumat yayıb. Anri ailə vəziyyəti ilə bağlı istefa verməli olub.

43 yaşlı çalışdırıcı buna görə də Kanada təmsilçisini tərk edib. Koronavirusla bağlı məhdudiyyətlər üzündən Anri uzun müddət uşaqlarını görə bilməyib.

*Qeyd edək ki, fransalı 2019-cu ilin noyabrında Monreal təmsilçisinin baş məşqçisi təyin olunub. Komanda 2016-cı ildən sonra MLS-in pley-offuna onun rəhbərliyi altında çıxıb.*



# Avropa Liqasında 1/8 finalın püşkü atıldı

## "Mançester Yunayted" "Milan"la qarşılaşacaq

Avropa Liqasında 1/8 final mərhələsinin püşkü atılıb.

Püşkatma mərasimi İsveçrənin Nyon şəhərindəki Avropa Futbol Evində keçirilib. Püşkatma nəticəsində cütlər aşağıdakı kimi təşkil olunub:

**Avropa Liqası**
**1/8 final**

**"Ayaks" (Niderland)** - "Yanq Boyz" (İsveçrə)

**"Dinamo" (K, Ukrayna)** - "Vilyarreal" (İspaniya)

**"Roma" (İtaliya)** - "Şaxtyor" (Ukrayna)

**"Olimpiakos" (Yunanıstan)** - "Arsenal" (İngiltərə)

**"Dinamo" (Z, Xorvatiya)** - "Tottenhem" (İngiltərə)

**"Mançester Yunayted" (İngiltərə)** - "Milan" (İtaliya)

**"Slaviya" (Çexiya)** - "Reyncers" (Şotlandiya)

**"Qranada" (İspaniya)** - "Molde" (Norveç)

*Qeyd edək ki, bu cütlərin ilk oyunları martın 11-də keçiriləcək. Cavab görüşləri isə həmin ayın 18-də baş tutacaq.*

## 102 qol vurulub

### Avroliqada yeni rekord qeydə alınıb



**Avropa Liqasının 1/16 final mərhələsində yeni rekord qeydə alınıb.**

Bu mərhələnin mərhələnin 32 oyununda ümumilikdə 102 qol vurulub.

Orta məhsuldarlıq 3,19-a bərabər olub. Belə nəticə isə turnirin tarixində ən yüksək göstərici hesab olunur.

*Qeyd edək ki, bundan əvvəl 1/16 finalda ən çox qol ötən mövsüm vurulmuşdu (95).*

## Henderson əməliyyat olundu



**"Liverpul"un Cordan Henderson əməliyyat olunub.**

Bu barədə klubun rəsmi saytı məlumat yayıb.

30 yaşlı yarımmüdafiəçinin ən az aprel ayınadək yaşıl meydanlardan kənarda qalacağı bildirilib.

*Qeyd edək ki, Henderson "Everton"la matçda (0:2) zədələnmişdi.*

## Portuqaliya millisinin qapıçısı dünyasını dəyişdi



**Portuqaliya millisi və "Porto"nun həndbolçusu Alfredo Kintana dünyasını dəyişib.**

4 gün öncə məşq zamanı ürəyi dayanan və komaya düşən 33 yaşlı qapıçının həyatını xilas etmək mümkün olmayıb.

Həkimlərin sözlərinə görə, təcrübəli qolkiperin vəziyyətinin pisləşməsinə beynindəki şiş səbəb olub.

*Qeyd edək ki, 10 ildir Porto-da çıxış edən Kintana 2014-cü ildən yığmanın formasını geyinirdi.*

## Messinin də köməyə ehtiyacı var

### Kuman: "Hər şeyi ən yaxşılardan tələb edə bilməzsiniz"



**"Barselona"nın baş məşqçisi Ronald Kuman komandanın kapitanı Lionel Messi haqqında danışıb. 57 yaşlı mütəxəssis bunları deyib:**

"Heç vaxt heç nəyi tək əldə edə bilməzsən. Messi La Liqada bu mövsüm 18 qol vurub. Amma digər hücumçuların hamısı eyni oldu. Messinin də köməyə ehtiyacı var. Həmişə ən yaxşılardan və ən təcrübəlilərdən hər şeyi etməsini istəyə bilməzsən. Oyuna yalnız Messi yox, bütün komanda cavabdeh olmalıdır".

*Qeyd edək ki, Messi bu mövsüm Kataloniya klubunun ən yaxşı bombardiridir.*

## "Beşiktaş" böyükhesablı qələbə qazandı



**Türkiyə Superliqasında 27-ci tura start verilib.**

İlk oyun günündə üç matç keçirilib.

"Gənclərbirliyi" "Yeni Malatyaspor"la, "Konyaspor" isə "Qaziantep"lə heç-heçə edib.

"Beşiktaş" isə "Dənizlispor" qəbul edib və 3:0 hesabı ilə qalib gəlib.

*Qeyd edək ki, hazırda "Qalatasaray" 54 xalla 1-ci, "Beşiktaş" eyni xalla 2-ci, "Fənərbaxça" 51 xalla 3-cüdür.*

26 fevral

**"Gənclərbirliyi" - "Yeni Malatyaspor"** - 1:1

**Qollar:** Özbir, 60-avtoqol - Tetteh, 34

**"Konyaspor" - "Qaziantep"** - 0:0

**"Beşiktaş" - "Dənizlispor"** - 3:0

**Qollar:** Larin, 22. Abubakar, 38. Lyayiç, 39.

## Obameyanq birinci olub

### Avropa Liqasında həftənin ən yaxşısı seçildi



**Avropa Liqasında bu həftənin ən yaxşı futbolçusu müəyyənləşib.**

Qurumun saytında azarkeşlər arasında keçirilən səsvermənin yekun nəticəsinə əsasən, "Arsenal"ın hücumçusu Pyer-Emerik Obameyanq birinci olub. O, səsvermədə "Tottenhem"dən Dele Alli, "Rangers"dən Alfredo Morelos və "Molde"dən Andreas Lindeni qabaqlayıb.

*Qeyd edək ki, Obameyanq Avroliqanın 1/16 finalında "Benfika" ilə cavab oyununda (3:2) dubla imza atıb.*

# Ağrıkəsicilərdən çox istifadə böyrək riski yaradır



## Baş ağrıma yaxşı gəldi" deyib dərman qəbul etməklə sağlıq problemimizə başqa bir bəla əlavə etmiş oluruq

Ağrıkəsicilərin davamlı və nəzarətsiz istifadəsi böyrəklərə zərər verir. Bu baxımdan həkimlər dərmanların uzun müddət istifadə edilməməsini tövsiyə edir.

Trakya Universiteti Sağlamlıq elmləri fakültəsi dekanı professor-həkim Sedat Üstündağ həddindən artıq ağrı kəsicilərinin istifadəsinin zərərləri barədə açıqlama verib.

*"Şərq" "Trthaber.com"a istinadən bildirir ki, həkim böyrək xəstəliyinin yetkin yaş qruplarında daha çox yayıldığını və hər altı insandan birinin böyrək ağrılarından əziyyət çəkdiyini söyləyib.*

Böyrək xəstəliyinin şəkər, həddindən artıq duz istifadəsi və siqaret çəkmə kimi bir çox səbəbdən qaynaqlandığını ifadə edən Üstündağ dərmanların nəzarətsiz qəbulunun böyük fəsadlara yol açdığını bildirib.

Nəzarətsiz, həddindən artıq dərman istehlakının böyrək xəstəliyi riski yaratdığını ifadə edən həkim bunları söylədi: "Ağrıkəsicilərin uzun müddətli istifadəsi, xüsusilə 30-70 yaş arası qadınlarda xroniki böyrək xəstəliklərinin vacib bir səbəbidir. "Mən gündə bir dəfə dərman istifadə edirəm" demək böyrək xəstəliyinin yaranma riskini azaltmır.

Xəstəlikləri ağrıkəsicilərlə müalicə etmək başqa bir problemin qapısını aça bilər. Həkim nəzarəti olmadan "baş ağrıma yaxşı gəldi" deyib dərman qəbul etməklə sağlıq problemimizə başqa bir bəla əlavə etmiş oluruq.

Başınız ağrıyırsa, qan təzyiqiniz ola bilər, qan təzyiqi tənzimləyən müalicə ilə bunları aradan qaldıra bilərsiniz, ağrıkəsicilərlə başınızı rahatlatmaq başqa bir problemə yol açır".

**Yeganə Bayramova**

# Hər gün bir ovuc qabıqlı fıstıq yeyin

Yer fıstığının tərkibində qoz və badamdakı qədər kalori olsa da, daha çox proteinə malikdir. Lif və yağ mənbəyi olan fıstıqda 30-dan çox vacib vitamin və minerallar var. Ondakı yağlar ürək üçün faydalı olan sağlam mono və doymamış yağlardır ki, bu da LDL xolesterolunun azalmasına kömək edir.



Axşam.az xarici mətbuata istinadən xəbər verir ki, Harvard Universitetində aparılan araşdırmalar zamanı həftədə 2 dəfə və ya daha çox fıstıq yeyən insanların ürək-damar xəstəlikləri riski, yeməyənlərlə müqayisədə yüzdə 13 faiz az olduğu müəyyən olunub.

"European Journal of Nutrition" jurnalında yer alan başqa bir araşdırmaya əsasən, fıstıq da daxil olmaqla, qozfındıq yeyənlərin daha az çəki yığdıqları və artıq çəki, piylənmə riskinin, yeməyənlərə nisbətən yüzdə 5 faiz daha aşağıdır.

Fıstığı yeyərkən üzərindəki qırmızı qabığı atırıq. Lakin mütəxəssislər onu elə qabıqlı yeməyi tövsiyyə edirlər. Çünki faydalı antioksidanlar və fitokimyəvi maddələr ən çox yer fıstığının kağız kimi nazik dərisində cəmlənib. Bu səbəbdən onu qabıqlı yemək sağlamlıq üçün daha faydalıdır. Lakin yeyərkən hər zaman qovrulan yer fıstığına üstünlük verin.

2 xörək qaşığı fıstıq yağı gündəlik maqnezium ehtiyacının yüzdə 14 faizini qarşılayır və bu da sümük toxumaları üçün əhəmiyyətlidir. Bununla yanaşı şəkərli diabet və insult riskini də azaldır.

Mütəxəssislər hər gün 1 ovuc fıstıq və ya 1 xörək qaşığı fıstıq yağı yeməyin sağlamlıq üçün faydalı olduğunu bildirirlər.




# Azercell ilə TikTok indi daha əlçatandır!

## *Lider mobil operator yeni "TikTok internet paketi"ni təqdim edir*

Ölkənin lider mobil operatoru "Azercell Telekom" MMC dünyada 800 milyondan çox istifadəçinin rəğbətini qazanan TikTok sosial şəbəkəsinin pərəstişkarlarını sevindirir.

Mobil operator son zamanlar sosial mediada rezonans yaradan TikTok üçün xüsusi internet paketi istifadəyə verir. Fevral ayının 23-dən mart ayının 31-dək yeni paket çərçivəsində 1GB həcmində interneti cəmi 2 AZN-ə təklif edən Azercell, gənc nəslin sevimlisi olan TikTok tətbiqini müştəriləri üçün daha da əlçatan edir.

Populyar musiqi və filtrlərdən istifadə edərək qısa videolar yaratmağa və paylaşmağa imkan verən TikTok-dan endirimli qiymətlərlə yararlanmaq üçün T açar sözünü 2525 qısa nömrəsinə göndərmək kifayətdir.

Qeyd edək ki, "TikTok internet paketi"ni yalnız Azercell-in aylıq internet paketlərinə abunə olan müştərilər sifariş edə bilər.

Sevdiyiniz sosial şəbəkədən əlverişli şərtlərlə yararlanmağa tələsin!

Azercell-in aylıq internet paketləri haqqında ətraflı məlumat üçün https://www.azercell.com/az/personal/plans-and-services/internet-pack/monthly.html , "TikTok internet paketi" haqqında ətraflı məlumat üçün https://www.azercell.com/az/personal/campaigns/internet/tiktok-data-pack.html səhifəsinə keçid etməyiniz xahiş olunur.

## Alim yeni metod kəşf edib

### Bunları etsəniz 60 saniyə ərzində yuxulayacaqsınız

*(Əvvəli səh: 16-da)*



**Metodun, əsasən, daha çox yuxusuzluğa kömək etdiyi bilinsə də, həddindən artıq stresli ağrıları sakitləşdirməyə, narahatlığı və ürək atışını yavaşlatmağa məcbur edərək qəzəbi idarə etməyə kömək edə bilir.**

Texnika dörd saniyə ərzində burnunuzdan nəfəs almağı, həmin nəfəsi yeddi saniyə tutmağı və səkkiz saniyə yavaş-yavaş nəfəs almağı əhatə edir.

Sonra bunu yuxuya gedənə qədər 4 dəfə təkrarlayın".

Mütəxəssis nəzəriyyədən tədricən istifadə edib onu sinir sisteminə salana qədər məşq etməyi məsləhət bilir: "Bu, zamanla olur. "4-7-8" metodundan istifadə edənlər deyir ki, insanlar texnikanı nə qədər çox istifadə etsələr, o qədər təsirli olur".

**Ağarza Elçinoğlu**

## "Twitter" ödənişli izləyici modelinə keçir



**"Twitter", xüsusi məzmun yaradan hesabların izləyicilərindən birbaşa ödəniş ala biləcəyi "Super Follows" özəlliyini elan edib.**

"Şərq" qəzeti xarici mediaya istinadən xəbər verir ki, bu xüsusiyyət sayəsində tvitter üçün xüsusi məzmun yaradan istifadəçilər izləyicilərindən birbaşa ödəmələr ala biləcəklər.

"Twitter" tərəfindən edilən açıqlamada yeni tətbiqin qiymətinin aylıq 4.99 dollar olduğu qeyd edilib. Lakun tvitterin bu xüsusiyyət üçün təyin etdiyi komissiya miqdarı barədə rəsmi bir açıqlama yoxdur.

**Aygün**

## Balkondan özlərini atıblar

### Məhkəmə şübhəlilərə bəraət verib



**2019-cu ilin noyabrın 25-də Küçükçekmecedə baş verən qanlı olayın məhkəmə prosesi yekunlaşıb.**

"Şərq" Türkiyə mətbuatına istinadən xəbər verir ki, Zeynep Kurt və dostu Aykut Demirtuğun ölümünə səbəb olan şübhəlilər barədə məhkəmə şok qərar verib. Belə ki, onların ölümünə səbəb olması ilə iddia olunan şübhəlilər Hüseyn Kurt və Engin Cuğa məhkəmə prosesində bəraət qazanıblar. Bununla yanaşı məhkəmə şübhəliləri üzərindən "qəsdən adam öldürmə" ittihamını da ləğv edib. Ayrıca məhkəmə onlara qarşı məhkəmə nəzarət tədbirlərinin ləğv edilməsinə də qərar verib. Lakin ölən şəxslərin ailələri bunlarla razılaşmayıblar. Ölən Aykut Demirtuğun atası Ahmet Demirtuğ verilən ifadələrin bir-birinə uyğun olmadığını bildirib. O qeyd edib ki, bu cür ziddiyyətli ifadələrdən sonra onlara bəraətin verilməsi çox üzücüdür. Ölən Zeynep Kurtun ailəsi isə müttəhimlərin cəzalandırılmasını və həbs olunmasını istəyib.

*Qeyd edək ki, Zeynep Kurt və Aykut Demirtuğ 5-ci mərtəbənin balkonundan atlayaraq ölüblər. Əvvəlki iddianamədə Hüseyin Kurt və Engin Cuğdanın onları qəsdən öldürdükləri bildirilmişdir. Onların 40 ildən 50 ilə qədər həbs cəzası gözlənilirdi.*

**Aynurə**

Baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu: Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov
Texniki heyət: Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111
Kod 200112 M/H AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 395



## Amerikalı mafiya lideri öldü

Peter 81 yaşında müalicə aldığı xəstəxanada keçinib

**ABŞ-da Nyu-York şəhərinin mafiya lideri və mütəşəkkil cinayət təşkilatı kimi tanınan "Gambino" ailəsinin sahibi Peter Qotto dünyasını dəyişib.**

O, 81 yaşında müalicə aldığı xəstəxanada vəfat edib.

*Qeyd edək ki, Peter insan alveri, qəsb və qətldə ittihamı ilə Federal Təhqiqat Bürosu (FTB) tərəfindən saxlanılıb. Məhkəmə qarşısına çıxan Qottoya 25 il həbs cəzası verilib.*

## Köməkçisini yaralayıblar

Qaqa itlərini tapana 850 min verəcək





**Müğənni Ledi Qaqanın itləri oğurlanıb.**

Los-Ancelesdə itləri gəzdirməyə çıxaran Qaqanın köməkçisi Rayan Fişer silahlı hücuma məruz qalıb. Kimliyi naməlum bir neçə şəxs atəş açaraq Rayanı yaralayıb və onun cins itləri Kocilə, Qustavı oğurlayıblar. Atəş nəticəsində çoxlu qan itirən köməkçi təcili olaraq xəstəxanaya aparılıb. Hadisə zamanı 3-cü it Miss Asia, polis tərəfindən tapılaraq Qaqaya təhvil verilib. Müğənni mətbuata açıqlaması zamanı itini tapıb ona gətirənə 500 min dollar (850 min manat) mükafat verəcəyini bildirib.

## Kosmetoloqa getdi

Qızın üzü dəhşətli hala düşdü



**Kosmetoloqa gedən qız səriştəsizliyin qurbanı olub. O, prosedurdan sonra üzündə yaranan dəhşətli nəticələri sosial şəbəkə hesabında paylaşıb.**

Bloqerin sözlərinə görə, lazerlə üz cilalama prosedurundan dərhal sonra onun üzü şişməyə və dərisi soyulmağa başlayıb. Sonra o, özünü maşında videoya çəkib. Bu vaxt kadrlarda onun dərisinin qırmızılaşdığı və iltihablandığı görünür. İstifadəçinin dediyinə görə, evə çatdıqdan sonra dərisi qanamağa başlayıb, səhəri gün isə qəhvəyi qabığa bürünüb. Abunəçilər qızın özünü tənqid ediblər. (medicina.az) "Gənc qızdır, ancaq hansısa cilalanma prosesindən keçir. Əlbəttə, başa düşürəm ki, bu, öz işinizdir, amma bu, həqiqətən paranoyadır, dəhşətli dərəcədə zərərlidir, vəziyyəti daha da pisləşdirir", "Bağışlayın, belə gənc insanlar niyə bunu edir?", "Özünüzü həqiqətənmi təbii şəkildə sevmirsiniz?", "Gənclik bir dəfə olur, onda niyə onu korlayırsınız" kimi şərhlər yazıblar.

## Atası özündən məşhurdur



**Aktrisa Bige Önalın şəxsi həyatı ilə bağlı həqiqət ortaya çıxıb.**

"Bir başkadır" serialı ilə ulduzu parıldayan aktrisanın atasının kimliyi bəlli olub. Verilən məlumatlara əsasən, o, keçmiş futbolçu Erhan Önalın qızıdır. O, illərlə "Qalatasaray", "Fenerbahçe" və "Standart Liq" kimi futbol klublarında fəaliyyət göstərib. Aktrisanın atası ilə anası Mine Baysan 1999-cu ildə ayrılıblar. Həmin vaxt 9 yaşı olan Bigeyə bu ayrılıq böyük travma yaşadıb.

Önal hazırda həmkarı Aras Bulut İynemli ilə eşq yaşayır.







# Alim yeni metod kəşf edib

Bunları etsəniz 60 saniyə ərzində yuxulayacaqsınız



**Bir çoxlarının yuxu saatı pozulandan sonra yata bilmir, yuxuya getməkdə çətinlik çəkirlər.**

**Arizonalı bir alim isə uzunmüddətli testlər və araşdırmalardan sonra tez yuxuya gedə bilmənin sirrini bölüşüb.**

Belə ki, Arizona Universitetinin inteqrativ tibb üzrə mütəxəssisi Andrey Veyl 60 saniyə ərzində yuxuya getmənin metodunu kəşf edib. O, "4-7-8" metodundan istifadə edərək yalnız bir dəqiqə ərzində yuxuya getmənin mümkünlüyünü bildirib. Bunun üçün isə vacib olan məqam nəfəs alma tərzini dəyişdirməkdir. Həkim A.Veyl, yuxuya getmək üçün "ən yaxşı metod" dediyi nəfəs alma texnikasını belə izah edir: "Rahatlaşdırıcı nəfəs" olaraq da bilinən "4-7-8 metodu" insanların sadəcə bir dəqiqədə yatmasına kömək edə bilər.

Qeyd edilən ritmik nəfəsalma meditasiya zamanı bundan istifadə edən hind yoqistlərindən əldə edilən əsas bir təcrübədir və bunun bir sıra faydaları var.

*(Davamı səh: 15-də)*

## Kompüter virusları yayılacaq

Livanlı öncəgörücü 2021-ci il proqnozunu açıqlayıb



**Leyla Abdul Lətif Beyrutda anadan olub. Atasından ona öncəgörücülük qabiliyyəti keçib.**

Atası ölkədə tanınmış loğman idi. Gəncliyindən astrologiya və ezotirika ilə maraqlanıb. Hələ 8 yaşı olarkən Həcc ziyarətinə getmiş babasının qayıtmayacağını demişdi və ailəsini xəbərdar etmişdi. Amma heç kim onun sözünü ciddi almamışdı. Babası həqiqətən Həcc səfəri yolunda qəzada ölür.

Leyla Lətif Livanda Dünya Qaçqınlar Fondunun səfiridir.

**Medicina.az onun 2021-ci il üçün açıqladığı öncəgörümlərini təqdim edir:**

- Pandemiya ilə bağlı vəziyyət ilin sonuna yaxın yaxşılaşacaq
- Vaksinasiya virusa qalib gəlməyə kömək edəcək
- Virus mutasiyaları zaman-zaman özünü göstərəcək, amma effektiv dərmanlar olacaq
- Koronavirus əvəzinə yeni komputer, şəbəkə virusları gələcək. Bu da rəqəmsal bazalara ciddi zərbə vuracaq
- Dünyada pandemiyadan sonra iqtisadi çöküş olacaq, sosial gərginlik gözlənilir
- Ən çox qarışıqlıq Çin və ABŞ-da gözlənilir
- Yaxın Şərqdə növbəti müharibə ola bilər
- İqlim və ekoloji fəlakətlər yaxındır. 2021-ci il çox isti olacaq.

## Məşhur reper Yıldız Tilbe ilə fotosunu paylaşdı

Snop Doqun addımı türk müğənninin pərəstişkarlarını həyəcanlandırıb



**Dünən dünyaca məşhur reper Snop Doq Yıldız Tilbe ilə fotosunu paylaşıb.**

İnstaqram hesabında 55 milyon izləyicisi olan tanınmış reper Snop Doqun bu paylaşımı onun pərəstişkarlarını həyəcanlandırıb. İkilinin fotosunu yan-yana görən izləyicilər, Snop Doqun karyerasındakı zirvə budur", "daha yaxşı ikili görmədik" kimi rəylər yazıblar.

*Qeyd edək ki, keçən günlərdə Yıldız Tilbe onun təqlidinin edilməsindən narahat olduğunu demişdi: "Allah onların ağzını açsın və bildiyi kimi buraxsın. Uşaq olanda üzümün sağ tərəfi yanıb. Bir deformasiya oldu. Məni təqlid edənləri qınayıram".*

**Aygün**